# 1 saat danışdılar

## Makron və Putin arasında telefon danışığı olub



**Fransa Prezidenti Emmanuel Makronla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.**

TASS-ın xəbərinə görə, telefon danışığı 1 saat davam edib.

APA-nın "Figaro"ya istinadla xəbərinə görə, Fransa prezidenti bir neçə gün əvvəl rusiyalı həmkarı ilə Maripoldakı humanitar əməliyyatların təhlükəsizliyini təmini barədə danışacağını bildirmişdi. Makron humanitar dəhlizin təhlükəsizliyi üçün Türkiyə və Ynanıstanın köməyindən istifadəni təklif etmişdi.

# Azərbaycanlı "qanuni oğru" Rafiq Masallı güllələndi



**Türkiyədə Rafiq Masallınskiy ləqəbli "qanuni oğru" Rafiq Yavər oğlu Eyvazov güllələnib.**

"Unikal" bildirir ki, "Rafiq Masallınskiy" Türkiyənin Mersin şəhərində yaşadığı evin girişində vurulub.

Dörd güllə yarası alan "qanuni oğru" Mersin şəhər Xəstəxanasına yerləşdirilib.

№ 53 (5575), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 mart 2022-ci il (çərşənbə)



# Ramazan ayı aprelin 2-də başlayır

## Qədr gecələrinin vaxtı açıqlanıb

**Ramazan ayının Qədr (Əhya) gecələrinin vaxtı açıqlanıb. Bu barədə Qafqaz Müsəlmanları İdarəsinin Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvimində qeyd edilib.**

Təqvimə əsasən, ilk Qədr gecəsi Ramazan ayının 18-dən 19-na keçən gecə, yəni aprelin 19-a təsadüf edəcək.

Bundan əlavə, aprelin 21-i (Ramazan ayının 20-dən 21-nə keçən gecə), 23-ü (Ramazan ayının 22-dən 23-nə keçən gecə) və 27-də də (Ramazan ayının 26-dan 27-nə keçən gecə) Qədr gecələri olacaq.

*Qeyd edək ki, Ramazan ayı Azərbaycanda aprelin 2-də başlayacaq. Şəvval ayının 1-i, yəni mayın 2-də Ramazan (Fitr) bayramı olacaq.*



# Prezident fərman imzalayıb

## Ərzaq məhsullarının alınmasına dair yeni mexanizm müəyyənləşir

**Ərzaq məhsullarının satıcıları satmaq niyyətində olduqları məhsulların növü, qiyməti və miqdarı barədə məlumatı hər il sentyabrın 1-dək "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalında yerləşdirəcəklər.**

Bu, Prezident İlham Əliyevin dünən imzaladığı fərmanla "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nda edilən dəyişiklikdə öz əksini tapıb.

(səh.2)

# Rusiya XİN Azərbaycan xalqının qəzəbini duydu

## "Deputat Mixail Delyaginin Azərbaycanla bağlı açıqlamaları tamamilə qəbuledilməz və məsuliyyətsizdir"



**Rusiya Federasiyası Dövlət Dumasının deputatı, iqtisadi siyasət komitəsinin sədr müavini Mixail Delyaginin Rusiya televiziyasında səsləndirdiyi məlum sərsəm və təxribat xarakterli çıxışı Azərbaycan ictimaiyyətinin, o cümlədən səfirlik əməkdaşlarının da ciddi narahatlıq və narazılığına səbəb olub.**

Səfirlikdən bildirilib ki, martın 29-da Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov Mixail Delyaginin fikirlərini şərh edərkən, onu emosiyalarını cilovlamağa və Azərbaycana münasibətdə dost olmayan bəyanatlardan çəkinməyə çağırıb.

(səh.2)

# Ərdoğan israrlıdı

## Türkiyədə Ukrayna və Rusiya arasında barış masası qurulur



"Növbədə Rusiya və Ukrayna prezidentlərinin görüşüdür"

**Dünən İstanbulda Ukrayna və Rusiya heyətləri arasında növbəti görüş baş tutub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan görüş yerinə gələrək çıxış edib. Ərdoğan vurğulayıb ki, rəsmi Ankara Rusiya və Ukrayna prezidentlərinin görüşünə də ev sahibliyi etməyə hazırdır:**

"Rusiya-Ukrayna müharibəsinin davam etməsi heç kimin xeyrinə deyil. Göstərdiyiniz səylərə görə sizi təbrik edirəm. Davam edən toqquşma qonşunuz və dostunuz olaraq bizi narahat edir. Dövlət rəhbərləriniz başda olmaqla bir çox rəsmilərinizlə təmasdayıq.

(səh.3)

# Asta-asta Xankəndiyə yaxınlaşırıq

## Ərəstun Oruclu: "Bir müddətdən sonra, bu bölgələr də nəzarətimizə keçəcək"



**Xankəndinin Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı siqnallar var.**

"Azəriqaz" bildirib ki, Xankəndi və digər ətraf yaşayış məntəqələrinə təbii qazın verilməsi bərpa olunacaq və ilk növbədə test işləri həyata keçiriləcək.

Ermənilərə vətəndaşlıq verilməsi məsələsi 44 günlük Vətən müharibəsindəki qələbəmizdən bu yana aktual mövzulardandır.

Qeyd edək ki, rus sülhməramlıların nəzarəti düzgün yerinə yetirməməsi də Xankəndi ilə bağlı atacağımız addımlara təsir edir. Həyata keçirə biləcəyimiz tədbirlərlə bağlı ehtimallar artır.

Xankəndi ilə bağlı "Şərq"ə danışan politoloq Ərəstun Oruclu Azərbaycanın bu şəhərə qaz verməsini yüksək qiymətləndirib:

(səh.4)



# Azərbaycanda su ehtiyatları azalır

**Son 4 ildə su ehtiyatlarımız 20-25 faiz azalıb.** Xəzər TV əbər verir ki, Milli Hidrometerologiya xidmətinin rəis müavini Rafiq Verdiyev "Xəbər Ertəsi"nə açıqlamasında belə deyib. Onun sözlərinə görə, qlobal iqlim dəyişikliyi, temperaturun 1,5 dərəcə yüksəlməsi, eyni zamanda, buxarlanmanın artması və yağıntının azalması bu prosesi daha da sürətləndirir.

Hazırda isə su resurslarının araşdırılması istiqamətində iş aparılır. Bunun üçün 25 hidroloji stansiya yaradılıb ki, onlar vaistəsilə çaylarda sululuğun səviyyəsi ölçülür. Daha 15 stansiya isə işğaldan azad edilmiş ərazilərdə qurulur.

Bir sözlə, qlobal iqlim dəyişikliyinin təsiri artıq ölkəmizdə də hiss edilir. Odur ki, hər kəs belə həssasməsələdə diqqətli olmalıdır.

# Fərrux kəndində insan qalıqları aşkarlanıb

## Qalıqların Birinci Qarabağ müharibəsində şəhid olmuş şəxsə aid olduğu ehtimal edilir



**Xocalı rayonunun Fərrux kəndində insan qalıqları aşkarlanıb.**

Azərbaycan Ordusunun hərbçiləri Fərrux kəndi ərazisindəki mövqelərdə qazıntı işləri apararkən insan qalıqları aşkar edilib.

Hadisə ilə bağlı bəzi məlumatlar ortaya çıxıb.

APA-nın əldə etdiyi məlumata görə, aşkarlanan qalıqlar Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi və eyni adlı kənd uğrunda gedən döyüşlərdə şəhid olmuş şəxs və ya şəxslərə aiddir.

Faktla bağlı müvafiq araşdırma və dəqiqləşmələr aparılır.

# Daha 48 nəfər koronavirusa yoluxub

## 3 nəfər vəfat edib, 31 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 48 yeni yoluxma faktı qeydə alınıb, 31 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 791 814 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 781 819 nəfər müalicə olunaraq sağalıb, 9 687 nəfər vəfat edib, aktiv xəstə sayı 308 nəfərdir.



# Kağız bahalaşdı

## Şahbaz Xuduoğlu: "Əsasən kağız idxal edən ölkələr müharibə şəraitindədilər"

(səh.3)

# "Ayaz Mütəllibov tarixdə demokratik ruhlu siyasətçi kimi qalacaq"

## Araz Əlizadə: "Ona hakimiyyətini qorumaq üçün güc işlətməyi olduğunu desəm də, sözümə məhəl qoymadı"



(səh.5)



# Prezident fərman imzalayıb

## Ərzaq məhsullarının alınmasına dair yeni mexanizm müəyyənləşir

**Ərzaq məhsullarının satıcıları satmaq niyyətində olduqları məhsulların növü, qiyməti və miqdarı barədə məlumatı hər il sentyabrın 1-dək "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalında yerləşdirəcəklər.**

Bu, Prezident İlham Əliyevin dünən imzaladığı fərmanla "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nda edilən dəyişiklikdə öz əksini tapıb.

"Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə edilən dəyişikliyə əsasən isə "Elektron kənd təsərrüfatı" informasiya sistemində "ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı" altsistemi yaradılır.

"Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı" altsistemi vasitəsilə satınalan təşkilatlar tərəfindən ərzaq məhsullarının dövlət büdcəsinin vəsaiti hesabına satın alınmasına dair tələb və təkliflərin yerləşdirilməsi, istehsalçıların və ya satıcıların satınalan təşkilat tərəfindən seçilməsi, habelə satınalan təşkilatlarla istehsalçılar və ya satıcılar arasında ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı əməliyyatlarının və bununla əlaqədar digər tədbirlərin həyata keçirilməsi təmin olunacaq.

*Yeni altsistemin yaradılması ilə əlaqədar EKTİS-ə ərzaq məhsulları istehsalçılarının, satıcılarının və satınalan təşkilatların aşağıdakı məlumatları daxil edilməlidir:*

- fiziki şəxs olduqda - soyadı, adı, atasının adı, qeydiyyat ünvanı və fərdi identifikasiya nömrəsi;
- hüquqi şəxs olduqda - tam adı, qanuni təmsilçisinin soyadı, adı və atasının adı, hüquqi ünvanı;
- VÖEN-i və vergi ödəyicisi kimi uçota alınması haqqında digər məlumatlar;
- əlaqə nömrələri;
- elektron poçt ünvanı;
- bank rekvizitləri (bankın adı, müxbir hesabı, kodu, VÖEN-i, SWIFT kodu və digər müvafiq məlumatlar.

Artıq ərzaq məhsullarının istehsalçıları və ya satıcıları EKTİS-dən qeydiyyatdan keçmək, elektron kabinetdən istifadə etmək, satınalan təşkilatların ərzaq məhsullarına tələbatlarına uyğun təkliflərini (məlumat və (və ya) sənədləri) daxil etmək, satınalan təşkilatlarla ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsini elektron sənəd formasında bağlamaq, həmin müqavilədə dəyişiklik edilməsi üçün müqavilənin digər tərəfinə müraciət etmək, ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsinə uyğun olaraq məhsulların təhvil-təslim aktını təsdiqləmək imkanına malik olacaqlar. Satınalan təşkilatlar EKTİS-dən qeydiyyatdan keçmək, elektron kabinetdən istifadə etmək, ərzaq məhsullarına tələbatları barədə məlumatları daxil etmək, ərzaq məhsullarının istehsalçıları və ya satıcıları ilə ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsini elektron sənəd formasında bağlamaq, həmin müqavilədə dəyişiklik edilməsi üçün müqavilənin digər tərəfinə müraciət etmək, ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı müqaviləsinə uyğun olaraq məhsulların təhvil-təslim aktlarını təsdiqləmək imkanı qazanacaqlar.

*Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.*

# Baş nazir müşavirədə tapşırıqlar verib

## Azərbaycanda süni qiymət artımına qarşı mübarizə gücləndiriləcək



**Bu gün ərzaq təhlükəsizliyin'in təmin edilməsinə və əhalinin əsas ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılmasına həsr olunan müşavirə keçirilib.**

Nazirlər Kabinetindən verilən xəbərə görə, Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilən müşavirədə "Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında" Nazirlər Kabinetinin 18 mart tarixli Qərarından irəli gələn tapşırıqlar, əsas ərzaq məhsulları ilə daxili bazarın təchizatının yaxşılaşdırılması və özünütəminat səviyyəsinin qorunması, yerli istehsalçıların stimullaşdırılması, əsas ticarət tərəfdaşları ilə idxal-ixrac əməliyyatları, daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi və digər məsələlər geniş müzakirə olunub.

Müşavirədə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi və Dövlət Ehtiyatları Agentliyinin məruzələri dinlənilib və müvafiq tapşırıqlar verilib.

# ABŞ komandanı narahatdır

## "Rusiyanın Kiyev ətrafından çəkilməsi strategiya dəyişikliyidir"



**Rusiya qoşunları önəmli strateji dəyişikliyin bir hissəsi kimi Kiyev ətrafındakı mövqelərdən geri çəkilməyə başlayıb.**

APA-nın ABŞ mətbuatına istinadən xəbərinə görə, bunu ABŞ senatının Silahlı Qüvvələr Komitəsində keçirilən dinləmədə ABŞ-ın Avropa Komandanlığının komandanı general Tod Volters deyib. General mediada rəsmi Moskvanın qoşunlarını Kiyev ətrafından və digər yerlərdən çəkməsi ilə bağlı xəbərlərə münasibətində bildirib ki, təchizat xətlərində problemlər və sürpriz müqavimətlə üzləşdikdən sonra Rusiya Prezidenti Vladimir Putin daha effektiv mövqe əldə etmək məqsədi ilə qüvvələrini yenidən mövqeləndirir.

# Ermənistan hələ də sülh danışıqlarına hazır görünmür

## Azərbaycan dövlətinin rəhbərliyi və ordusu baş verən bütün proseslərə nəzarət edir



**Ermənistan Azərbaycanı tez bir zamanda hərtərəfli sülh sazişi üzrə danışıqlara başlamağa dəvət edib. Bu barədə Ermənistan hökumətinin mətbuat xidməti məlumat yayıb. Vurğulanıb ki, bu qərar ölkənin Təhlükəsizlik Şurasının iclasında Qarabağdakı vəziyyət müzakirə olunarkən alınıb.**

Ermənistan parlamentinin sədri Alen Simonyan da bildirib ki, Azərbaycanın münasibətlərin normallaşması üçün yeni təklifi məqbuldur. O vurğulayıb ki, əgər bir neçə aspekt əlavə edilsə, bu işin həyata keçirilməsi mümkündür. Xatırladaq ki, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla münasibətlərin normallaşmasına dair 5 maddədən ibarət sənəd göndərdiklərini və cavab gözlədiklərini bildirmişdi. Əksər ekspertlərin fikrincə, Azərbaycanın Ermənistanı sülhə məcburetmə siyasəti effektiv nəticələrini verməkdədir. Son günlər Rusiya sülhməramlılarının nəzarət zonasında yerləşən ərazilərdə qalan erməni silahlıları tərəfindən Azərbaycan Ordusuna qarşı müxtəlif təxribatlar törədilirdi. Bir neçə gün öncə Azərbaycan Ordusunun bölmələri ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqeləri nəzarətə götürüb. O baxımdan Ermənistanın belə bəyanatlarını səmimi qəbul etməyənlər də var.

**Politoloq Tofiq Abbasov bildirib ki, Ermənistan sözdə sülh danışıqlarına hazır olduğunu desə də, əməldə buna hazır deyil. Onun sözlərinə görə, Qarabağda qalan erməni terrorçuları hələ də ciddi-cəhdlə çalışırlar ki, yeni mövqelər düzəltsinlər:** "Azərbaycan tərəfi təbii olaraq onların bu cinayətkar hərəkətlərinə imkan verməyəcək. Onların təxribatyönümlü cəhdləri isə səmərəsiz qalacaq. Əgər Qarabağda yaşayan erməni əsilli əhali sakit, dinc həyat istəyirsə, onlar ilk növbədə özləri həmin cinayətkarları oradan rədd etməlidirlər. Bununla da Azərbaycan dövlətinə loyallıqlarını sözdə yox, əməldə təsdiqləmiş olacaqlar".

*Siyasi şərhçiyə görə, Qarabağda qalmış erməni silahlı tör-töküntüləri yerli camaatı 30 il ərzində qorxu-təzyiq altında kazarma rejimində yaşamağa məcbur ediblər:* "Azərbaycan dövlətinin rəhbərliyi və ordusu baş verən bütün proseslərə nəzarət edir. Bu günlərdə daha bir zəfər yürüşü keçirildi. Fərrux kəndində mövqelənmiş separatçılar həmin ərazidən təmizləndi. Azərbaycan Ordusunun atdığı addımlar təhlükəsizliyin qorunması və təmin edilməsi üçündür. Ermənistan Təhlükəsizlik Şurası sülhdən danışırsa, onda bu niyyətə sadiq olduqlarını göstərməlidir".

**İsmayıl**



# Rusiya XİN Azərbaycan xalqının qəzəbini duydu

## "Deputat Mixail Delyaginin Azərbaycanla bağlı açıqlamaları tamamilə qəbuledilməz və məsuliyyətsizdir"

**Rusiya Federasiyası Dövlət Dumasının deputatı, iqtisadi siyasət komitəsinin sədr müavini Mixail Delyaginin Rusiya televiziyasında səsləndirdiyi məlum sərsəm və təxribat xarakterli çıxışı Azərbaycan ictimaiyyətinin, o cümlədən səfirlik əməkdaşlarının da ciddi narahatlıq və narazılığına səbəb olub.**

Səfirlikdən bildirilib ki, martın 29-da Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov Mixail Delyaginin fikirlərini şərh edərkən, onu emosiyalarını cilovlamağa və Azərbaycana münasibətdə dost olmayan bəyanatlardan çəkinməyə çağırıb. Bundan əlavə, o qeyd edib ki, bu açıqlama Rusiya Federasiyasının rəsmi mövqeyinə heç bir halda cavab vermir və verə də bilməz. Rusiyanın Qarabağda sülhün dəstəklənməsi və tərəflərin öz üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsi üçün böyük səy göstərdiyi bir vaxtda Mixail Delyaginin bu cür ritorikadan çəkinməli olduğunu vurğulayıb.

Həmçinin Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova mətbuat üçün keçirdiyi ənənəvi brifinq zamanı Dmitri Peskovun açıqlaması ilə həmfikir olduqlarını söyləyib, bu kimi bəyanatların qəbuledilməz və məsuliyyətsiz olduğunu diqqətə çatdırıb. Azərbaycanla qarşılıqlı müttəfiqlik və strateji tərəfdaşlıq münasibətlərinin qurulmasını hədəf seçən Rusiya Federasiyasının, onun rəhbərliyinin mövqeyini əks etdirmədiyini bildirib. Həmçinin Rusiya XİN-in rəsmisi Dövlət Dumasının rəhbərliyi tərəfindən də belə təxribat xarakterli açıqlamalara qiymət veriləcəyinə əminliyini ifadə edib.

Bundan əlavə, "Spravedlivaya Rossiya" partiyasının rəyasət heyətinin katibi, Rusiya Dövlət Dumasının III-VII çağırış deputatı Oleq Şein tərəfindən səfir Polad Bülbüloğlunun adına məktub ünvanlanıb. Məktubda Oleq Şein sağlam düşüncəsini itirməmiş Rusiya vətəndaşları adından həmpartiyalısı, Dövlət Dumasının deputatı Mixail Delyaginin Rusiya televiziyasında səsləndirdiyi fikirləri ilə bağlı üzr istəyib, soydaşlarının əksər çoxluğunun Azərbaycanı dost ölkə, Azərbaycan xalqını isə mehriban qonşu kimi qəbul etdiklərini vurğulayıb.

Oleq Şein təmsil etdiyi partiyanın rəhbərliyinə daxil olan bir şəxs kimi gələcəkdə belə halların baş verməməsi üçün müvafiq addımlar atdığını da bildirib.

Səfir Polad Bülbüloğlu "Rossiya 1" kanalının daxil olduğu Ümumrusiya Dövlət Teleradio Verilişləri Şirkətinin rəhbərliyinə Azərbaycan ictimaiyyətinin ciddi narazılığını çatdırıb və belə halların qəbuledilməz olduğunu vurğulayıb.

Göstərilmiş səylər nəticəsində Mixail Delyagin də bu gün Rusiya rəsmiləri tərəfindən ona verilmiş məsləhətləri qəbul etdiyini açıqlayıb, səsləndirdiyi fikirlərinə görə peşman olduğunu bildirərək üzr istəyib və belə addımı şou naminə atdığını söyləyib.

# "Biz sülh təkliflərimizi qarşı tərəfə təqdim etmişik"

## Asim Mollazadə: "Ermənistandan real addımlar və cavablar gözləyirik"



**Ötən gün Ermənistanda Təhlükəsizlik Şurasının iclası keçirilib. İclasda Baş nazir Nikol Paşinyan və Prezident Vaaqn Xaçaturyan iştirak ediblər.**

Toplantıda rəsmi İrəvan Bakını hərtərəfli sülh sazişi üzrə danışıqlara dərhal başlamağa dəvət edib.

**Ermənistanın sülh çağırışına münasibət bildirən millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə "Şərq"ə bildirib ki, rəsmi İrəvan konkret addımlar atmalıdır:**

"Azərbaycan sülh sazişi ilə bağlı təklifləri Ermənistana təqdim edib. Biz Ermənistandan real addımlar və cavablar gözləyirik. Bu, Ermənistanın özünü bir dövlət kimi xilas etməsi üçün yeganə çıxış yoludur. Ona görə də Ermənistan Azərbaycanla sülh sazişini hazırlamalı, delimitasiya-demarkasiya keçirməli və Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır".

**Millət vəkili sülh sazişi imzalandıqdan sonra Ermənistana yaranacaq fürsətlərdən danışıb:** "Bu halda Ermənistan bizim bölgədə həyata keçirilən layihələrdə iştirak edə bilər, kommunikasiyalar açıla bilər və normal bir dövlətə çevrilə bilər. Onlar həm Azərbaycana qarşı, həm də Türkiyəyə qarşı nifrəti kənara qoyaraq, qonşularının ərazi bütövlüyünü tanımalıdır və sülh istiqamətində real addımlar atmalıdır. Biz təkliflərimizi təqdim etmişik".

**Çimnaz Şahlar**

# Sahibə Qafarova Simonyanın cavabını verdi

## Parlament sədrləri arasında mübahisə yaşanıb



**Azərbaycan və Ermənistanın parlament sədrləri arasında mübahisə düşüb. Milli Məclisin sədri Sahibə Qafarova və Ermənistan parlamentinin sədri Alen Simonyan MDB-nin üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şurasının iclasında qarşılıqlı iddialarla çıxış ediblər.**

Çıxışı zamanı Simonyan Azərbaycan tərəfinin atəşkəsi pozduğunu iddia edib. Parlament sədri Sahibə Qafarova isə Simonyanın iddiasını cavabsız qoymayıb. Spiker bildirib ki, Qarabağda Azərbaycan tərəfindən atəşkəsin pozulması haqqında informasiya tamamilə həqiqəti əks etdirmir. S.Qafarova vurğulayıb ki, Azərbaycanın suveren ərazisinə daxil olmuş qanunsuz erməni silahlı birləşmələri Azərbaycan Ordusunun bölmələrinə qarşı növbəti təxribat həyata keçirməyə çalışıb. Lakin silahlı qüvvələrimizin cavab tədbirləri nəticəsində geri çəkilməyə məcbur olublar. Sədrin sözlərinə görə, Azərbaycan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata sadiqdir və onun müddəalarını pozmayıb: "Bəyanatın müddəalarını Azərbaycan deyil, Ermənistan pozur". Parlament sədri həmçinin Ermənistanın qoşun qalıqlarının və qanunsuz erməni silahlı birləşmələrinin dərhal Azərbaycan ərazilərindən çıxarılmasını tələb edib. O, Azərbaycanın üçtərəfli bəyanata uyğun olaraq bütün hərbi əsirləri Ermənistana təhvil verdiyini vurğulayıb: "10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycan ərazisinə daxil olmuş erməni hərbçiləri Cenevrə Konvensiyasına uyğun olaraq hərbi əsir hesab olunmur və cinayət məsuliyyətinə cəlb edilməlidir".

Alen Simonyan isə bəyanatın Azərbaycan tərəfindən pozulması barədə təkcə Ermənistanın deyil, Rusiyanın da bəyanat yaydığını söyləyib: "Bir daha təkrar etmək istəyirəm: Ermənistan Azərbaycana təklif edir ki, sülh müqaviləsinin bağlanması ilə bağlı dərhal danışıqlara başlanılsın".

Milli Məclis sədri Sahibə Qafarova rəsmi Bakının Ermənistan tərəfinə yaxşı tanış 5 bəndi nəzərə almaqla, sülh müqaviləsi imzalamağı dəfələrlə rəsmi İrəvana təklif etdiyini bildirib. Simonyan isə rəsmən bəyan edib ki, bu bəndlər Ermənistan üçün qəbuledilməzdir: "Hesab edirik ki, bəzi aspektlər əlavə olunarsa, onların icrasına başlaya bilərik".

**İsmayıl**



# Ərdoğan israrlıdı

## Türkiyədə Ukrayna və Rusiya arasında barış masası qurulur

**Dünən İstanbulda Ukrayna və Rusiya heyətləri arasında növbəti görüş baş tutub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan görüş yerinə gələrək çıxış edib. Ərdoğan vurğulayıb ki, rəsmi Ankara Rusiya və Ukrayna prezidentlərinin görüşünə də ev sahibliyi etməyə hazırdır:**

"Rusiya-Ukrayna müharibəsinin davam etməsi heç kimin xeyrinə deyil. Göstərdiyiniz səylərə görə sizi təbrik edirəm. Davam edən toqquşma qonşunuz və dostunuz olaraq bizi narahat edir. Dövlət rəhbərləriniz başda olmaqla bir çox rəsmilərinizlə təmasdayıq. Bütün beynəlxalq platformalarda hər iki tərəfin maraqlarına uyğun mövqe ifadə etdik. Məsuliyyəti üzərimizə götürməkdən çəkinmədik. Müharibənin uzanması kimsənin maraqlarına uyğun deyil. Artıq müzakirələrin uğurlu nəticələri olmalıdır".

**"Ukrayna-Rusiya böhranında razılaşmaya çalışan tək ölkəyik"**

Ərdoğan deyib ki, Türkiyə yeganə ölkədir ki, 2014-cü ildən indiyədək davam edən Ukrayna-Rusiya böhranını razılaşma yolu ilə həll etməyə çalışır: "Bu gün biz hər iki tərəfin səmimiyyətinə və ədalətinə inandığı ölkəyik. Antalyada tərəflər arasında xarici işlər nazirləri səviyyəsində görüş keçirilib. Danışıqlardan əvvəl nümayəndə heyətləri ilə qısa görüşümüz olacaq. Zelenski və Putinlə apardığımız telefon danışıqları məhsuldar keçib.

**"Rusiya və Ukrayna arasında yaxınlaşma var"**

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Ankaraya göstərilən etimadın fərqindədirlər. O bildirib ki, tərəflər arasında yaxınlaşma var: "Bu prosesə dəstək veririk. Minlərlə insanın ölümünə və milyonlarla insanın yerlərindən didərgin düşməsinə yol açan bu savaş artıq dayanmalıdır. Bu gün Türkiyədə həyata keçirilən görüşdə bu məsələdə məsafə qət edildiyini görürük. Bəzi mövzularda uzlaşma əldə edildi".

Çavuşoğlu bildirib ki, Ukrayna və Rusiya arasında təmaslar artıb: "Ən əhəmiyyətli məsələ atəşkəsə nail olmaqdır. Bu gün Türkiyədə keçirilən görüşdə bəzi mövzularda ortaq razılaşmalar əldə edildi. Daha çətin məsələlərin üst səviyyələrdə müzakirə ediləcəyini düşünürük. Bundan sonrakı mərhələdə hər iki ölkənin XİN rəhbərləri bir araya gəlməli, razılaşmanın mətni hazır vəziyyətə gətirilməlidir. Növbəti mərhələ isə prezidentlərin görüşüdür".

**"İndiki təhlükəsizlik qarantları sistemi işləmir"**

Ukrayna nümayəndə heyətinin rəhbəri David Araxamiya deyib ki, Ukrayna Rusiya ilə təhlükəsizlik qarantiyası məsələsində anlaşa bilməyib. Onun sözlərinə görə, ölkəsi



> "Növbədə Rusiya və Ukrayna prezidentlərinin görüşüdür"

BMT TŞ-nin 5 daimi üzvünün, habelə Kanada, Polşa, İsrail və Türkiyənin Ukraynanın təhlükəsizliyinin qarantı olaraq görmək istəyir. Araxamiya əlavə edib ki, təhlükəsizlik qarantiyası məsələsində anlaşma əldə edilməyib: "İndiki təhlükəsizlik qarantları sistemi işləmir, biz bunu Mariupol və Xarkovda görürük".

**Zelenskinin ofisi: Krımla bağlı danışıqlar 15 il sürəcək**

Ukrayna prezidentinin aparat rəhbərinin müşaviri Mixail Podolyak bildirib ki, Rusiyaya iki ölkənin Krım və Sevastopolla bağlı mövqelərini razılaşmada müəyyən etməyi təklif ediblər: "Ukrayna Rusiyanı 15 il ərzində Krım məsələsini hərbi yolla həll etməyəcəkləri ilə razılaşmağa dəvət edib". Onun sözlərinə görə, 15 il ərzində Krımın və Sevastopolun statusu ilə bağlı ikitərəfli danışıqların aparılması təklif olunur: "Ayrı bir bənddə Ukrayna tərəfi bu müddət ərzində danışıqların getdiyi bir vaxtda Ukrayna və Rusiyanın Krım məsələsini həll etmək üçün silahlı qüvvələrdən istifadə etməyəcəyinin qeyd olunmasını təklif edib".

**"Hazırda intensiv məsləhətləşmələr davam etdirilir"**

Podolyak vurğulayıb ki, hazırda bir sıra mühüm məsələlər üzrə intensiv məsləhətləşmələr davam edir: "Əsas məsələ Ukrayna üçün beynəlxalq təhlükəsizlik təminatları haqqında sazişdir və yalnız bu razılaşma ilə müharibəni Ukraynaya lazım olan şəkildə bitirə bilərik". Onun sözlərinə görə, hazırda bütün yığılmış humanitar problemlərin həllinin mümkün olması üçün nümayəndə heyətlərinin müzakirə etdiyi məsələlərdən ikincisi atəşkəsdir: "Bu gün bizim daha böyük problemimiz var, müharibənin qızışması, nifrətin artması, döyüş adətlərinin, qaydalarının pozulmasının artması problemi. Bizdə və digər yerlərdə birbaşa efirlərdə bu və ya digər xalqı məhv etməyə çağırışlar, münaqişələrə gətirib çıxaran, hərbi əsirlərlə bağlı Cenevrə Konvensiyasının necə pozulduğunu əks etdirən videogörüntülər yayımlanır".

**"Təkliflər barədə Rusiya Prezidenti Vladimir Putinə məruzə olunacaq"**

Ukrayna rəsmiləri ilə danışıqlarda iştirak edən Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski deyib ki, Rusiya Ukraynanın təkliflərini nəzərdən keçirəcək: "Təkliflər barədə Rusiya Prezidenti Vladimir Putinə məruzə olunacaq". O əlavə edib ki, Vladimir Putinlə Vladimir Zelenski arasında görüş hər iki ölkənin XİN başçısının əldə ediləcək razılaşmanı imzalaması ilə paralel baş tuta bilər.

**"Tərəflərin açıqlamaları müəyyən gözləntilər yaradır"**

**Siyasi şərhçi Asif Nərimanlı deyib ki, tərəflərin açıqlamaları müəyyən gözləntilər də yaradır. Onun sözlərinə görə, Rusiya tərəfi qısa açıqlama ilə bəzi maddələr üzərində anlaşma əldə edildiyini, bunun üzərində xarici işlər nazirlərinin işləyəcəyini deyir:** "Ukrayna tərəfi təkliflərinin nədən ibarət olduğunu açıqlayıb. Bu, beynəlxalq təhlükəsizlik zəmanətləri haqqında sazişin imzalanmasıdır. Kiyev bununla bağlı xalqın mövqeyini öyrənmək üçün referendum keçirilməsini, referendum üçün isə döyüşlərin dayanması, rus ordusunun ölkə ərazisindən çıxarılmasını istəyir. Krımın statusu Ukrayna və Rusiya arasında qarşıdakı 15 il ərzində ikitərəfli şəkildə müzakirə olunsun. Müzakirələrin getdiyi vaxt hər iki tərəf Krım məsələsinin həlli məqsədilə hərbi gücdən istifadə etməyəcək. Donbassla bağlı Ukrayna və Rusiya prezidentləri danışıqları çərçivəsində müzakirə olunacaq xüsusi bənd var. Danışıqların getdiyi vaxt Rusiya Müdafiə Nazirliyini Krım və Çerniqov istiqamətində hücumu ciddi şəkildə azaltmaq qərarı diqqət çəkir. Sergey Şoyqu bildirir ki, müharibənin birinci mərhələsində əsas tapşırıqlar yerinə yetirilib, bundan sonra əsas məqsədə - Donbassın işğalına diqqət yetirəcəklər. Danışıqlar prosesi, təkliflər və Rusiyanın müharibə ilə bağlı qərarı iki versiyanı önə çıxarır. Birincisi, müharibənin planlaşdırıldığı kimi getməməsi Rusiyanı əsas məqsəd dediyi minimum qazanca məcbur edir. İkincisi, ruslar hücumun ikinci və daha geniş mərhələsinə keçid üçün aldadıcı manevr edirlər. Moskva Kiyevin təklifləri üzərində düşünəcəklərini desə də, rusların saziş imzalanması üçün qoşunları Ukraynadan çıxaracağı ehtimalı az görünür".

**İsmayıl**

# Delyagin sıradan bir adam deyil

## Rus deputatın cavabı vaxtında və ən sərt üsulla verilməlidir



> "Onsuz da Azərbaycan cəmiyyətində Rusiya ilə bağlı çox neqativ fikirlər dolaşmaqdadır. Belə hadisələrdən sonra ölkə ictimaiyyətinin ruslara qarşı aqressiyası daha da artır"

**Rusiyanın iki dövlət kanalında Azərbaycana qarşı təxribat törədilib. "Rossiya 1" və "Pervıy" telekanallarının 28 mart tarixli efirlərində ölkəmizin ərazi bütövlüyünə və dövlətimizin ünvanına təhdidlər səsləndirilib. "60 minut" siyasi tok-şousunda çıxış edən Rusiya Dövlət Dumasının iqtisadi siyasət komitəsinin sədr müavini, deputat Mixail Delyagin həddini aşaraq ölkəmizi hədələyib.**

Verilişdə Azərbaycanın Qarabağ regionunda yaranmış son vəziyyətə toxunulub. Ölkəmiz Qarabağda atəşkəsi pozmaqda, üçtərəfli bəyanatın müddəalarına riayət etməməkdə günahlandırılıb. Delyagin bir az da irəli gedərək Azərbaycanı Rusiya üçün real təhlükə adlandırıb. Azərbaycanın sərt şəkildə cəzalandırılmasının vacib olduğunu söyləyib. Rusiya mediasının təxribatı "Rossiya 1" kanalı ilə yekunlaşmayıb. Azərbaycan mövzusu "Pervıy" kanalında, ermənipərəst Artyom Şeyninin aparıcılıq etdiyi tok-şouda da davam etdirilib. Mixail Delyagin bu dəfə Rusiyanın Azərbaycanın neft sənayesini məhv edə biləcəyi ilə hədələyib. Bu şəxs dövlət telekanallarında sərsəm bəyanatları ilə kifayətlənməyib. O, teleqram kanalında Azərbaycanın neft sənayesinə nüvə silahı ilə zərbələr endirmək çağırışı ilə bağlı absurd sorğu da keçirib. Rusiyanın dövlət tərəfindən maliyyələşən federal kanallarında Azərbaycana qarşı təxribatlar yeni deyil. 44 günlük Qarabağ müharibəsi zamanı da, ondan əvvəllər də eyni mənzərənin dəfələrlə şahidi olmuşuq. Ekspertlərə görə, Delyagin kimi siyasi klounların ermənilərdən aldığı təlimatlar əsasında sərsəm bəyanatlar səsləndirdiyi aydındır. Təəccüb və təəssüf doğuran Rusiya dövlət kanallarının tutduğu mövqedir. Onlar anlamırlar ki, hazırda bütün dünya ilə üz-üzə qalan Rusiyanın Türkiyə və Azərbaycanla münasibətlərini korlaması heç də ağıllı hərəkət deyil. Siyasi Araşdırmalar Mərkəzinin direktoru, Rusiya Dövlət Dumasının sabiq deputatı Sergey Markov vurğulayıb ki, Delyaginin bəyanatı Rusiyanın maraqlarına ziddir. Onun fikrincə, bu cür bəyanatlar məsuliyyətsizdir.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, Rusiyanın təxribatı ilə ilk dəfə üzləşmirik. Partiya rəhbərinin sözlərinə görə, 44 günlük savaş boyunca və ondan sonra mütəmadi rus rəsmilərin, media orqanlarının absurd yanaşmalarının şahidi olmuşuq:** "Rusiyada Jirinovskinin yerini tutmağa, yerini "doldurmağa" çalışanlar var. Moskva belə davranışları elə bir zamanda sərgiləyir ki, Rusiya bütün dünyada işğalçı ölkə kimi qələmə verilir. Kremlə qarşı çox ciddi sanksiyalar tətbiq olunmaqdadır. Rusiya əleyhinə sanksiyalara qoşulmayan üç-beş ölkədən biri Azərbaycan, digəri isə Türkiyədir. Bununla yanaşı, fevralın 22-də Rusiya-Azərbaycan arasında müttəfiqlik sənədi imzalanıb. Bütün bunlarınn fonunda Azərbaycana qarşı münasibət sərgilənirsə, deməli, rus rəsmilər normal əməkdaşlıqdan anlamırlar. Rusiya təmsilçilərinin başa düşdüyü dil zor tətbiq etmək, güc işlətməkdir. Delyagin sıradan adam deyil, Rusiya Dövlət Dumasının deputatıdır. Cavabı vaxtında və ən sərt üsulla verilməlidir. İlk növbədə Azərbaycan parlamenti, Rusiya ilə dostluq qrupunun üzvləri Delyaginə başa düşdüyü tərzdə cavab verməlidirlər. Onun məsuliyyətə cəlb olunması, cəzalanması üçün ciddi addımlar atılmalıdır. Kimsə Rusiyanı tənqid edirsə, ölkədə dərhal həmin şəxsin əleyhinə kampaniya başladılır, adı "qara siyahıya" salınır. Halbuki, ruslar haqlı olaraq tənqid olunur. O baxımdan bizi təhqir edənlərə qarşı ən sərt münasibət göstərməliyik. Onsuz da Azərbaycan cəmiyyətində Rusiya ilə bağlı çox neqativ fikirlər dolaşmaqdadır. Belə hadisələrdən sonra ölkə ictimaiyyətinin ruslara qarşı aqressiyası daha da artır".

**İsmayıl Qocayev**

# Türk Dövlətlər Təşkilatı Ukrayna savaşına mövqe sərgiləməlidir

## "Rusiyanın Ukrayna üzərinə göndərib məhv etdirdiyi hərbçilərin əksəriyyəti türklərdir"



**Tanınmış tarixçi-alim, professor, sabiq deputat Nəsib Nəsibli Türk Dövlətləri Təşkilatının (TDT) Rusiya-Ukrayna müharibəsi ilə bağlı konkret mövqe sərgiləməsinin vaxtının çatdığını deyib. Alim vurğulayıb ki, Türk Dövlətləri Təşkilatının zirvə toplantısının tam zamanıdır. Hətta Nəsib Nəsibli bunun üçün kifayət qədər gec qalındığını bildirib:**

"Türk Dövlətləri Təşkilatı Ukrayna savaşına ortaq münasibət bildirməklə varlığını xatırlatmış olardı. Onlayn konfransla yumşaq da olsa bəyanat vermək mümkündür".

**Tarixçi-alimin təklifini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Azər Həsrət bunun müsbət təşəbbüs olduğunu deyib. Analitikə görə, ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsi və bənzər böyük hadisələrdə Türk Dövlətləri Təşkilatı məsləhətləşmələr aparmalı, ortaq mövqedən çıxış etməlidir:** "Prosesdə Türkiyə onsuz da fəaldır və Kiyevlə Moskva arasında vasitəçilik etməyə çalışır. Bunlar müsbət məqamlardır. Amma TDT regional təşkilat kimi belə məsələlərə mövqe sərgiləməlidir. Söhbət ondan getmir ki, mütləq kimisə, hansısa tərəfi ittiham etməliyik, yaxud kiminsə tərəfini tutmalıyıq. Ən azından təşkilat olaraq münaqişə tərəflərini ortaq məxrəcə gələrək problemləri dinc yolla həll etməyə çağıra bilərik. Yumşaq diplomatiya dili ilə belə bir çağırış mümkündür. Kimsə deyə bilər ki, türk dövlətləri hara, Rusiya, Ukrayna hara?! Bu, belə deyil. Həm Rusiya, həm də Ukrayna tərkibində türk topluları var. Şəxsi müşahidələrimə görə, Rusiyanın Ukrayna üzərinə göndərib məhv etdirdiyi hərbçilərin əksəriyyəti türklərdir. Çoxu tatarlar, çuvaşlar, başqırdlar, noqaylar, qaraçaylar, balkarlardan ibarətdir. Sanki qəsdən, seçərək göndərirlər. Ona görə də TDT bu müharibənin bir an öncə dayandırılmasına, problemin masa arxasında çözülməsinə çağırış etməlidir".

**İsmayıl Qocayev**





# Kağız bahalaşdı

> **Şahbaz Xuduoğlu:** "Əsasən kağız idxal edən ölkələr müharibə şəraitindədilər"
>
> **Nazim Bəydəmirli:** "Rusiya hər yerə problem yaradır. Təkrar emal sahəsinin inkişafı üçün çalışmaq lazımdır"

**Bir neçə gündür Azərbaycanda A4 formatlı kağızın qiyməti qalxıb. Əvvəllər bir bağlaması 4,5 manata satılan kağız hazırda mağazalarda 9-10 manatadır.**

Bu barədə sosial şəbəkədə məlumat yayılıb. Dəftərxana ləvazimatlarının satışı ilə məşğul olan bir çox yerlərdə sözügedən kağızlar tapılmır, bu da olanların qiymətinin ikiqat artması deməkdir. Həmçinin əvvəllər bir ədədi 50 qəpiyə satılan A3 formatlı kağız da iki dəfə bahalaşaraq bir manata satılır.

İddia olunur ki, sözügedən kağızın qiymətinin artması yerli istehsalın olmaması, onun Rusiyadan gətirilməsi ilə əlaqədardır. Rusiyada kağız istehsal edən müəssisə kimyəvi xammalın bir hissəsini Almaniyadan idxal edir. Rusiyanın Ukraynaya hərbi müdaxiləsindən sonra isə Almaniya hökuməti ixracı dayandırıb. Nəticədə Azərbaycana da kağızın ixracı dayanıb.

**Kağızın bahalaşması iddiaları ilə bağlı "Şərq"ə açıqlama verən "Qanun" Nəşriyyatının direktoru Şahbaz Xuduoğlunun sözlərinə görə, belə davam edərsə, çap məhsulları sıradan çıxacaq. Çünki əsasən kağız idxal edən ölkələr müharibə şəraitindədilər:**

"Azərbaycana kağız Rusiya və Ukraynadan gəlirdi. Hazırda gəlmir, bircə Çin qalır. Çindən də kağız 2-3 aya gəlib çatır. Orda da qiymətlər həddindən artıq bahalaşıb. Avropa kağızını müxtəlif yerlərdən, İndoneziya və Çindən alır. Ölkəmizə baha qiymətə gəlir. Almaniya, Finlandiya istehsalçı ölkədir, lakin həmin ölkələrdən də kağız gətirmək çətin məsələdir.

Əvvəldən nəşr edilən kitabların qiyməti olduğu kimi satılacaq. Yeni qiymətlər mütləq qalxacaq. Ay yarım əvvəl qəzet, kitab kağızının qiymətinin 1700 dollara qalxacağını demişdim. Amma artıq 1700 deyil, 2100 dollara yüksəlib. 1 ton offset ( mətbəə ) çapı kağızının qiyməti durmadan artır".

**Vəziyyəti şərh edən iqtisadçı-alim Nazim Bəydəmirli isə "Şərq"ə Rusiyaya qarşı qoyulan sanksiyaların logistik problemlər yaratdığını söyləyib:**

"Dünyanın 30 faizindən çoxunun kağız idxalı Rusiyanın payına düşür. Müharibəyə görə bank köçürmələri də çətinləşib. Qısa müddətdə qiymətin bahalaşması mümkündür. Lakin dünyadakı bahalaşma ilə əlaqəli deyil. Yaxşı tərəfdaş olmayan Rusiya hər yerə problem yaradır. Ondan başqa digər alternativlər var. Təkrar emal sahəsinin inkişafı üçün çalışmaq lazımdır. Dünyada ekologiya tərəfdarları və müəyyən ölkələr meşələrin qırılmasına qarşı çıxırlar. Qəzetlər də təkrar emaldan yararlanır. A4 formatını alternativ ölkələrdə istehsal edir. Alıcılar, şirkətlər qısa müddətdə ola bilər ki, alternativ tapmaqda çətinlik çəkiblər. Rublun ucuzlaşması malı bahalaşdırmamalı idi, çətinlik kommunikasiya problemlərinə görədir".

**Aygün Tahir**

# Özəlləşdirmə çeklərinin "dirilməsi" yenidən gündəmə gəlir




**Razi Nurullayev:** "Vətəndaşları da düşünmək lazımdır"

**Cümşüd Nuriyev:** "Çeklərin dəyərləndirilməsi üçün yeni meyarlar qəbul olunmalıdır"





**2011-ci ildən bu yana mütəmadi gündəmə gələn məsələlərdən biri "özəlləşdirmə çekləri" ilə bağlıdır. Qiymətli kağızların dövriyyəyə buraxılmasına 1996-cı il yanvarın 1-dən başlanıb. Ümumilikdə vətəndaşlara 31,9 milyon özəlləşdirmə çeki paylanılıb.**

Vauçerlərdən daha geniş istifadənin təmin olunması məqsədi ilə onların tədavül müddəti bir neçə dəfə uzadılıb. Sonuncu dəfə müddət 2011-ci ilin yanvarın 1-nə kimi artırılıb. İlkin dövrlərdə vətəndaşlar vauçerləri dəyər-dəymezinə "qara bazar"da satışa çıxarıblar. Nəticədə özəlləşdirmə prosesində faktiki iştirakları olmayıb. Bəzi vətəndaşlar həmin dövrdə "qara bazar"da vauçerlərini satışa çıxarsalar da, gələcəkdə bundan faydalana biləcəyini düşünənlər çekləri qoruyub saxlayıblar. Lakin tədavül müddəti dayandırıldığı üçün yüzminlərlə vətəndaşın mülkiyyət hüquqları pozulub. İctimaiyyət nümayəndələrinin fikrincə, ölkə vətəndaşlarının mülkiyyət hüququna sahib olma haqları yenidən bərpa olunmalıdır.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədr müavini, "Vecon Consulting" qiymətləndirmə şirkətinin direktoru Vüqar Oruc "Şərq"ə açıqlamasında bildirib ki, vauçerlərin paylandığı dövrdə vətəndaşların iqtisadi bilgiləri yetərli səviyyədə olmayıb. Ekspertin sözlərinə görə, bəzi vətəndaşlarımız düşünürdü ki, çeklər sadəcə bazarda satmaq üçündür, mübadilə vasitəsidir: "Xeyli insan "qara bazarda" çekləri satdı, pula çevirdi. Vauçerləri dövlət tərəfindən onlara verilmiş "maddi yardım" kimi qəbul etdilər. Heç kim vətəndaşlara izah etmədi ki, çeklər ölkə iqtisadiyyatının inkişafında, müəssisələrin paylara bölünməsində iştirak üçün bir vasitədir".

V.Oruc vurğulayıb ki, iqtisadi bərabərliyi pozan bu amilin aradan qaldırılması istiqamətində hökumət tədbirlər görməlidir: "Əgər bu gün vətəndaşların əllərində vauçerlər qalıbsa və ölkə iqtisadiyyatında istifadə edilməyibsə, onların istifadəsinin həlli yolu tapılmalıdır. Elə edilməlidir ki, çeklər yenidən iqtisadi proseslərin subyektinə çevrilsin. Ayrı-ayrı müəssisələrin özəlləşdirilməsində həmin çeklərin bu və ya digər formada bərpasına, yaxud yenidən tədavülə buraxılmasına ehtiyac var. Yollar çoxdur və daha əlverişli metodlardan yararlanaraq insanların hüquqlarını bərpa etmək lazımdır". Ekspert bəyan edib ki, Azərbaycan sosial dövlətdir və öz vətəndaşlarının hüquqlarının qorunması istiqamətində mühüm addımlar atır: "O səbəbdən əllərində çeklər qalmış insanların hüquqları təmin olunmalıdır. Məsələ Milli Məclisdə, komitələrdə müzakirə edilməlidir. Fəaliyyətsiz, "bankrot" olan müəssisələrin özəlləşdirilməyə çıxarılması mümkündür".

**Millət vəkili Razi Nurullayev də məsələnin müsbət həllinə tərəfdar olduğunu deyib. "Şərq"ə danışan deputat söyləyib ki, problemin çözülməsi istiqamətində müəyyən addımlar atıla bilər:** "Özəlləşdirmə zamanı produktiv, cəlbedici və investisiyaya maraqlı bütün dövlət müəssisələri zamanında qəpik-quruşa özəlləşdirildi. Vəzifəli şəxslər bu işdən yüz milyonlarla vəsait qazandılar. O zaman bir çox xarici vətəndaşlar ölkəmizdə işləyən vəzifəli şəxslərin əliylə özəlləşdirmə çeklərini kütləvi şəkildə aldılar. Proses heç də bazar iqtisadiyyatının qanunlarına uyğun getmədi və məsələ dayandırıldı. İndi xeyli vətəndaşın əlində özəlləşdirmə çekləri qalmaqdadır. Amma özəlləşdirmə çekləri həmin insanların haqqı idi. Bəzi dövlət müəssisələri özəlləşdirməyə açıqdır. Bununla bağlı yeni qərar verilərsə, çox yaxşı olar. Çeklər sahiblərinin karına gəlməli, onların işinə yaramalıdır. Vətəndaşları da düşünmək lazımdır".

Parlament üzvü şəxsən özündə də qiymətli kağızların olduğunu bildirib: "Sayını dəqiq bilmirəm, 7 ya 11 özəlləşdirmə çekim var. Köhnə diplomatın içinə qoymuşdum, deyəsən, elə orada qalıb. Əgər yenidən tədavülə buraxılsaydı, biz də çıxarıb verərdik. Niyə kimlərinsə əlində özəlləşdirmə çekləri qalmalıdır?! Axı istifadə edilmək üçün dövriyyəyə buraxılıb. Kimsə vaxtında istifadə etməyibsə, yenə də dəyəri özündə qalmalıdır. Ümid edirəm, hökumət bu məsələni də düşünəcək və insanların xeyrinə qərar veriləcək".

**Siyasi elmlər doktoru, professor, sabiq millət vəkili Cümşüd Nuriyev "Şərq"ə danışarkən bildirib ki, 1995-ci ilin ortalarında ilk özəlləşdirmə proqramını parlamentə o təqdim edib:** "Vauçerlərin dəyəri zavod-fabrik səviyyəsində, dövrün reallıqlarına uyğun hesablanmışdı. Dünya praktikasına görə, çeklərin müddəti bir neçə dəfə uzadıldı və 2011-ci ildək dövriyyədə qaldı. Amma bir çox insan çeklərin bahalaşacağını zənn edərək satışa çıxarmadı". Keçmiş deputata görə, indiki satış dövrün tələblərinə uyğun olmalıdır, çünki 10 il əvvəlki rəqəmlərlə hazırkı qiymətlər fərqlidir: "Çeklərin dəyərləndirilməsi üçün yeni meyarlar qəbul olunmalıdır. Yenidən çap edilməlidir. Özəlləşdirmə çeklərinin yenidən "dirildilməsi" iqtisadi cəhətdən çətindir. Birincisi, əmlakların çoxu, bank və sənaye sahələri özəlləşdirilib. Digər qurumların, məsələn, "Azəravtoyol", "Azərdəmiryol", "AZAL", "Bakı metropoliteni", "Azəriqaz", "Azərişıq" kimi təbii inhisarçıların özəlləşdirilməsinə hazır deyilik. Hələlik ancaq xidmət sahələrində özəlləşdirmə gedir. Təbii inhisarların özəlləşdirməyə çıxarılması üçün qanunvericilik aktı qəbul olunmalıdır. Əlbəttə, məsələ müzakirə oluna bilər. Dünya praktikasında əlverişli variant varsa, bizdə də yararlanmaq mümkündür".

**İsmayıl**



# Qərbin baxışı müsəlman ölkələrinə qarşı dəyişmir

100 il öncə soyqırım törədən ermənilər cəzalarını almalıdır

**Əsrlər boyu erməni millətçiləri tərəfindən xalqımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımı cinayətləri həyata keçirilib. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında erməni-daşnak silahlı dəstələri tərəfindən törədilən qətliamlar olub.**

Həmin dövrdə Bakı şəhərində, quberniyaya daxil olan digər şəhər və qəsəbələrdə, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə törədilmiş kütləvi qırğınlar və vandalizm aktları törədilib. On minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla qətlə yetirilib, mədəniyyət abidələri, tarixi binalar və məscidlər dağıdılıb. Kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın öldürülməsi ilə nəticələnib. Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıblar. Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə ediblər. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulub. Ermənilər Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binasını yandırıblar. Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən, 2560 qadın və 1277 uşağı qətlə yetiriblər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olub. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər. 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim edib, 1919-cu ildə Azərbaycan parlamenti 31 Mart tarixinin Azərbaycanlıların Soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul edib. Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunmaqdadır.

"Məsələni beynəlxalq hüquq müstəvisinə çıxartmalı, tarixi olaylara baxışı da kökündən dəyişməliyik"

**Türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə bildirib ki, 31 mart soyqırımının 104-cü ildönümü ilə bağlı tədbirlər daha genişmiqyaslı olmalıdır. Alim vurğulayıb ki, təşkil olunan konfranslarda əsas məqsəd dünya ictimaiyyətini erməni vəhşiliyi ilə tanış etmək, onları məlumatlandırmaqdır:** "Diqqətə çatdırmalıyıq ki, bu gün Ukraynada, yaxud dünyanın digər ölkələrində yaşanan fəlakət, qətllər, uşaq və qadınların öldürülməsi faktları yüz il öncə ermənilərin əli ilə Azərbaycanda baş verib. Ukraynada, Gürcüstanda və yaxud başqa xristian ölkəsindəki işğal faktlarına, qətliamlara kifayət qədər diqqət yönəldilir. Amma əfsuslar olsun ki, müsəlman-türk ölkələrinə münasibətdə bunu görmürük. Yüz il öncə Qərb ölkələrinin regionumuzdakı proseslərə yanaşması necə idisə, indi də beynəlxalq təşkilatların baxışı eynidir. Ermənilər sadəcə Bakıda, Şamaxıda, Qubada, Qarabağda deyil, eyni zamanda Cənubi Azərbaycan şəhərlərində də soyqırımı törədiblər, günahsız insanları qılıncdan keçiriblər. Ancaq dəhşətli qırğınlara indiyədək lazımi qiymət verilməyib. O baxımdan məsələni beynəlxalq hüquq müstəvisinə çıxartmalı, tarixi olaylara baxışı da kökündən dəyişməliyik. Beynəlxalq hüquq ancaq xristian dininə mənsub xalqlar üçün olmamalıdır. Azərbaycan türklərinin də hüquqları tanınmalı, soyqırımı törədən ermənilər öz cəzalarını almalıdır".

**İsmayıl Qocayev**

# Azərbaycan da rus saytlarını bloklamalıdır

Arif Əliyev: "Ən düzgün və adekvat addım budur"





**Rusiyanın Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidməti ("Roskomnadzor") ümumilikdə 5 Azərbaycan saytını ölkə ərazisində bloklayıb.**

Rusiyada bloklanan Oxu.az saytının bu barədə açıqlamasında saytın redaksiyasına heç bir məlumat, xəbərdarlıq edilmədən bu addımın atıldığı qeyd olunub. Saytdan bildirilib ki, bu, birbaşa söz azadlığına, demokratiyaya, plüralizmə zidd hesab olunur, "Roskomnadzor"un bu addımı qərəzli və qanunsuzdur.

Qeyd edək ki, bundan əvvəl Haqqin.az və Minval.az saytları da Rusiya ərazisində bloklanıb.

Hazırda Bakının cavab olaraq hansı addımı atacağı maraqla gözlənilir.

**"Yeni Nəsil" Jurnalistlər İttifaqının sədri Arif Əliyev "Şərq"ə açıqlamasında media təşkilatlarının buna bəyanatlarla, xahiş məktubları yazmaqla cavab verdiyini bildirib.**

Onun sözlərinə görə, bu, düşünülməmiş görülən tədbirdir: "Bu kimi hallara dəfələrlə rast gəlinib və adətən belə vəziyyətdə cavab tədbirləri başqa xarakterdə olur. Əgər hər hansı ölkənin informasiya orqanlarına digər ölkədə məhdudiyyətlər qoyulursa, ona uyğun şəkildə eyni addımlar bu ölkədə də atılmalıdır. Rusiyanın Azərbaycanda yayılan və fəal şəkildə informasiya ötürən saytları çoxdur. Bizdə də eyni sayda və xüsusilə, informasiya mühitimiz üçün təbliğat baxımından problem yaradan saytlara məhdudiyyət tətbiq olunmalıdır. Ən düzgün və adekvat addım budur.

İndiki halda bizim ora müraciətlər göndərib, şikayət ünvanlamağımız bir qədər qəribə görünür. Çünki Rusiyanın həmin dövlət qurumu daha böyük və milli saytlara belə məhdudiyyətlər tətbiq edib. "Exo Moskva", "Novaya qazeta" kimi mətbuat orqanlarının fəaliyyətinin dayandırılması haqqında bəyanat verildi və müharibə bitənə qədər buna məcbur olduqlarını bildirdilər. Belə halda bizim onlara müraciətlərimiz və ya söz azadlığını başa salmağa çalışmağımız əbəsdir".

**Sənan İsmayıl**

**Xankəndinin Azərbaycanın nəzarətinə keçməsi ilə bağlı siqnallar var. "Azəriqaz" bildirib ki, Xankəndi və digər ətraf yaşayış məntəqələrinə təbii qazın verilməsi bərpa olunacaq və ilk növbədə test işləri həyata keçiriləcək.**

Ermənilərə vətəndaşlıq verilməsi məsələsi 44 günlük Vətən müharibəsindəki qələbəmizdən bu yana aktual mövzulardandır.

Qeyd edək ki, rus sülhməramlıların nəzarəti düzgün yerinə yetirməməsi də Xankəndi ilə bağlı atacağımız addımlara təsir edir. Həyata keçirə biləcəyimiz tədbirlərlə bağlı ehtimallar artır.





# Asta-asta Xankəndiyə yaxınlaşırıq

Ərəstun Oruclu: "Bir müddətdən sonra, bu bölgələr də nəzarətimizə keçəcək"

**Xankəndi ilə bağlı "Şərq"ə danışan politoloq Ərəstun Oruclu Azərbaycanın bu şəhərə qaz verməsini yüksək qiymətləndirib:**

"Təəssüf ki, həm Azərbaycan, həm də Ermənistan mətbuatında bu məsələ ilə bağlı məlumat qıtlığı var. Amma müəyyən detallar var ki, onlar birmənalı şəkildə aydındır. Qaz verilməsi bərpa olunur. Məlum olur ki, ölkəmizin hələ də işğal altında qalan və rus sülhməramlıların nəzarətində olan ərazilərdə tərəflərin qazla təminatı dövlətimiz tərəfindən həyata keçirilir və bizdən asılıdır. Müsbət tendensiyadır. Rusiya hərbçiləri ilə ordumuz arasındakı zonalara mövqe qoymaq məsələsi ilə bağlı mübahisələr və rus rəsmilərinin buna aqressiv reaksiyası göstərir ki, artıq həmin torpaqlara bizim nəzarət etmək istəyimiz var".

**Ə.Oruclunun fikrincə, rus sülhməramlıların nəzarətdə olan ərazilərdən çıxmasını demək həddindən artıq optimist yanaşmadır:**

"Düşünmürəm ki, getməyə hazırlaşırlar. Bizim tərəf Rusiyaya təzyiq göstərir. Xüsusilə də, Ukraynadakı müharibədən sonra rəsmi Moskvanın hər hansısa sülhməramlı missiya keçirməyə mənəvi haqqı yoxdur. Həmin hərbi kontingent ərazimizə adi üçtərəfli bəyanatın əsasında yeridilib. Bu da ilk gündən Azərbaycan konstitusiyasına zidd durumdur. Şimal qonşumuz 1 il yarım müddətdə öz mandatını leqallaşdıra bilməyib. Ölkəmiz bunu rəsmiləşdirməyib. Yəni hansısa parlament səviyyəsində qərar qəbul etməklə qanunvericiliyimizə uyğunlaşdırmaqla, onlara status verilməsi məsələsi havada qaldığından, təbii ki, Kremldə qıcıq yaradır. Çünki rus hakimiyyəti bununla həm ölkəmizə, həm Ermənistana təsir göstərmək istəyir. Rəsmi İrəvan hakimiyyəti Rusiyaya tabe olmaq istəmir".

**Politoloq ərazilərə nəzarətin bizə keçməsinin mümkün ola biləcəyindən bəhs edib:**

"Düşünmürəm ki, həmin ərazilər bu gün Azərbaycanın nəzarətindədir. Çünki bununla bağlı fakt yoxdur. Amma strateji mövqeləri öz nəzarətinə qaytarmaqla asta-asta irəliləyə bilir. İstisna deyil ki, bir müddətdən sonra, bu bölgələr nəzarətimizə keçəcək".

**Ərəstun Oruclu ermənilərlə bağlı məsələnin necə həll ola biləcəyini izah edib:**

"Azərbaycan qanunvericiliyinə görə ikili vətəndaşlıq artıq mümkün deyil. Qanuna düzəliş edilənə qədər həmin status saxlanılırdı. Nəzərə alsaq ki, qondarma Dağlıq Qarabağ Respublikası tanınmayan qurumdur, şəxsiyyəti təsdiq edən sənədləri dünyada tanınmır. Bu halda qanunvericiliyimizdə müəyyən dəyişikliklər olunmalıdır. Təbii ki, danışıqlar nəticəsində edilə bilər. Həmin əhaliyə də seçimlər verilə bilər. Müəyyən müddətə qədər ikili vətəndaşlıqdan istifadə edə bilsinlər. Öz təhlükəsizliyini təmin etmək üçün bunun baş verməsi ehtimalı olar. Tərəflər arasında etimad yoxdur. Çünki müharibə təzə bitib, 30 il işğal məsələsi var. İki dövlət arasında sülh müqaviləsi imzalansa, ola bilər. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın, biz də Qarabağın qaranlıq hissəsində yaşayan erməni icmasının nümayəndələrini ölkəmizin vətəndaşı kimi tanıyaq. Hələ ki, bu məsələnin baş verməsi tezdir. Mənim fikrimcə, Azərbaycan öz ərazilərinə nəzarəti bərpa etmək istəyir. Bunun alınması Rusiyadan asılıdır. Ermənistan heç nə həll etmir. Baş nazir Nikol Paşinyan da məsuliyyəti qarabağlıların və rəsmi Moskvanın üzərinə atıb".

**Cəmilə Əzim**

# Ermənistan terror dövlətidir

## İrəvan bu gün Ukraynaya qarşı aparılan müharibəyə qoşulub



**Ermənistan qırıcı təyyarələrini Ukraynaya qarşı istifadə edilməsi üçün Rusiyaya verib. İrəvan bu təyyarələri Rusiyadan aldığını desə də, SU 30-ların hədiyyə edildiyi haqda məlumatlar əvvəldən var idi.**

Bu baxımdan, Ukraynada müharibə aparan Rusiyanın Ermənistana verdiyi təyyarələri istifadə üçün geri alması mümkündür. Xüsusilə Ukraynada ciddi hərbi texnika problemi ilə üzləşməsi Moskvanı buna vadar edə bilər. Ermənistan tərəfinin buna etiraz etməsi mümkün deyil. Çünki erməni ordusunun hərbi-texniki təminatı bütövlükdə Rusiyadan asılıdır. Təyyarələrin erməni pilotlar tərəfindən idarə olunması isə Paşinyan hakimiyyətinin Ukraynada Rusiya hücumuna töhfə vermək, Moskva qarşısında dividend qazanmaq niyyətindən irəli gəlir. Ermənistanın mövcud hakimiyyətinin bu cür "manevrləri" ilk deyil. Qərb mərkəzlərinin dəstəyi ilə hakimiyyətə gələn Paşinyanın Rusiya ilə yaxınlaşmaq xəttini inkişaf etdirməsi, son seçkilərdən sonra bu prosesi sürətləndirməsi bunun bariz nümunəsidir. Qərbə inteqrasiya etmək istəyindən danışan Paşinyanın reallıqda Rusiyanın işğal hücumuna dəstək çıxması Ermənistan hakimiyyətinin xarici siyasi kursunda ikili oyunlara üstünlük verdiyini göstərir.

**Millət vəkili Ceyhun Məmmədov hesab edir ki, İrəvanın bu yardımı birmənalı olaraq onu deməyə əsas verir ki, artıq Ermənistan Ukraynaya qarşı aparılan hərbi əməliyyatlara qoşulub.** Deputatın sözlərinə görə, bütün dünya Belarusun müharibəyə qoşulacağını güman etsə də, Ermənistan bu ölkəni qabaqladı və qarşıdurmanın bilavasitə iştirakçısına çevrildi: "Tam əminliklə söyləyə bilərik ki, bu gün Ukraynanın şəhərlərinin, infrastrukturunun dağıdılmasında Ermənistan da iştirak edir və bu prosesə öz "töhfələrini" verir. Görünən odur ki, Azərbaycandan aldığı zərbə, "dəmir yumruq" Paşinyan hakimiyyəti üçün yetərli olmadı. Ermənistan rəhbəri dövlətçilik maraqlarını, öz xalqının mənafeyini qurban verərək ölkəsini ciddi zərbə altına qoydu. Ermənistanın siyasətinin həqiqi mahiyyəti budur. Bundan əvvəl də Ermənistanın Ukraynada vuruşmaq üçün Suriyadan gətirilən yaraqlıların döyüş zonasına göndərilməsində fəal iştirak etdiyi barədə məlumatlar yayılmışdı. Məhz bu səbəbdən bir sıra Qərb dairələrində Ermənistana bu hərəkətlərinə görə sanksiyaların tətbiqi ilə bağlı fikirlər səsləndirilir. Ermənistanın son addımları bu ölkəyə sanksiyaların tətbiqi üçün kifayət qədər əsas verir. Artıq sözdən əmələ keçməyin vaxtıdır".

*Parlament üzvü vurğulayıb ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşır, bu ölkəyə davamlı humanitar yardımlar göstərir:* "Ukrayna prezidenti yenidən Prezident İlham Əliyevə zəng edərək təşəkkürünü bildirib. Ermənistan isə Ukraynada həyata keçirilən əməliyyatlarda bilavasitə iştirak edir. Qərb dövlətləri, eləcə də beynəlxalq qurumlar Ermənistanla bağlı siyasətlərində bu amilləri mütləq nəzərə almalıdırlar. Ermənistan hər zaman söylədiyimiz kimi, terror dövlətidir".

**İsmayıl Qocayev**

# Mümkün qədər ənənəvi avtomobillərdən yaxa qurtarmaq lazımdır

## "Çalışmalıyıq ki, insanlar zəhərlənməsin, təbiət korlanmasın, hava təmiz olsun"



**Dövlət Gömrük Komitəsi ölkəyə idxal olunan ekoloji təmiz avtomobillərin idxal rüsumundan azad olunması üçün hökumətə çağırış edib.**

Komitənin Gömrük ödənişləri idarəsinin rəisi Tariyel Alverdiyev "Azərbaycanda ekoloji təmiz avtomobillərin istismarı və təmiz ətraf mühit" mövzusunda mətbuat konfransında çıxışı zamanı bildirib ki, hazırda həmin avtomobilləri Azərbaycana gətirənlər yalnız əlavə dəyər vergisi (ƏDV) ödəmir:

"Hökumətə təklif etmişik ki, idxal rüsumu ləğv edilsin".

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı "Şərq"ə açıqlamasında bildirib ki, DGK-nin müraciəti indiki zamanda zəruri olan addımlardan biridir:** "Prezident İlham Əliyev 2018-ci ilin dekabr ayında "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 5 illik dövlət proqramı" imzalayıb. Həmin fəaliyyət planında ekoloji təmiz nəqliyyat vasitələrinin ölkəyə gətirilməsinin stimullaşdırılması öz əskini tapır. Komitə nümayəndəsinin açıqladığı həmin fikirlər də cənab Prezidentin bu sahədə verdiyi tapşırıqların icrası ilə bağlıdır. DGK bundan əvvəl də təkliflər irəli sürüb. Yanvar ayından etibarən Azərbaycana gətirilən hibrid və elektromobillərin ƏDV-dən azad olunması baş tutub. Beləliklə, növbəti addım da idxal vergisindən azad olunmadır. Ümumən bütün bunlar ekoloji təmiz nəqliyyat vasitələrinin qiymətinin aşağı düşməsinə, insanlar üçün əlçatan olmasına gətirib, çıxaracaq. Biz də istəyir və bunu dəstəkləyirik ki, ətraf mühitin qorunması üçün ekoloji təmiz nəqliyyat vasitələrinin ölkəyə gətirilməsi intensivləşsin. Uzun müddət vaxt alsa da, getdikcə ekoloji təmizliyin qorunması üçün öz imkanlarımız çərçivəsində işlər görməliyik. Bunların da başında nəqliyyat vasitələri dayanır. Çünki ətraf mühitin çirklənməsi ilə bağlı aparılan araşdırmalar göstərir ki, xüsusən də paytaxt şəhərlərdə, meqapolislərdə havanın oksigeninin azalmasının 70-80 faizini nəqliyyat vasitələri təşkil edir. Ona görə də ənənəvi avtomobillərdən mümkün qədər tez yaxa qurtarmaq lazımdır ki, insanlar zəhərlənməsin, təbiət korlanmasın, hava təmiz olsun. Ümid edirəm Komitənin irəli sürdüyü bu təkliflər tezliklə reallaşacaq".

**Sücayət Mehti**





# "Türk ruhu"

## Azərbaycanlı alim Ərdoğana şeir həsr etdi

**Azərbaycanlı sosioloq-alim Əhməd Qəşəmoğlunun ədəbi yaradıcılığından bəzi oxucuların xəbəri yoxdur.**

İstərdik onlar da bilsinlər ki, Ə.Qəşəmoğlu cəmiyyətin ağrılarını analiz edib, çıxış yolları göstərməklə yanaşı, bəzən bu "sancı"nı şeirlə də ifadə edir. Bir sözlə, sosioloq-alim həm də maraqlı və təsirli şeirlər müəllifidir. Zaman-zaman onun şeirlərinin estetik və maarifləndirici təravətini duyuruq. Bu dəfə isə Ə.Qəşəmoğlu siyasi düşüncələrini şeirə çevirib. Sosioloq-alim Türkiyənin cümhurbaşqanı, hörmətli Rəcəb Tayyib Ərdoğana "Türk ruhu" adlı şeir ithaf edib.

**Fırtınalar kükrəyir**
**dövranın dəryasında,**
**yer üzü**
**yeni bir aləmin astanasında...**

**qərq olub getmədə gəmilər bir-bir...**
**göy üzündə bulud-bulud**
**ağlayır nalələr...**
**bomba kimi yağır hər yandan**
**iblis qəh-qəhəli yeni hiylələr...**

**çalxanır tarix... calxanır dünya...**
**batıb gedir aləmlər,**
**üzə çıxır bir vədə**
**sular altda qalmış aləmlər...**

**...məzarlarda torpaq olan sümüklərdi,**
**ruhların özünün kahkəşanı var...**
**üzə çıxır**
**tilsimə düşmüş ruhlar,**
**silkinirlər dünyanın sirri-sehrindən...**
**Ey dünya!**
**ruhun qüdrətindən xəbərin varmı?**

**türkün ruhunda nurlanır indi**
**babalarımızın ruhu...**
**sərkərdələrimizin, alimlərimizin,**
**şairlərimizin, müdriklərimizin ruhu...**

**türkdü yer üzünün ulu memarı,**
**türk olacaq bu bəlalardan**
**yer üzünün xilaskarı...**



# Kənd təsərrüfatı məhsulları kəskin bahalaşıb

## Aprel ayından başlayaraq isə stabilləşmə, hətta ucuzlaşma müşahidə ediləcək

**Azərbaycanda əhalinin istehlak səbətində mühüm yer tutan bir sıra tərəvəz məhsulları bahalaşıb.**

Bu barədə Banker.az Azərbaycanın Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. Məlumata görə, kartofun qiyməti fevral ayında hər kiloqramı 1.02 manat təşkil edib. Bu da son ayda 4 qəpik bahalaşma deməkdir.

Lakin, mart ayı üçün də artımlar davam edir. Banker.az supermarketlərdəki qiyməti araşdırıb və hazırda acık sortu 1.2 manat/kq, Şəmkir kartofunun qiyməti 1.7 kq/manat təşkil edir.

Baş soğanın hər kiloqramı isə rəsmi olaraq 3 qəpik, yaxud 5.47 faiz bahalaşaraq 66 qəpik təşkil edir. Marketlərdə isə mart ayı üçün hər kiloqramının qiyməti artıq 1 manat ətrafındadır.

Fevralda bəzi tərəvəzlər: məsələn, yerkökü (0.78 faiz) və süfrə çuğunduru (0.64 faiz) ucuzlaşıb.

Qeyd edək ki, bahalaşma dünyada tüğyan edir. Hər sahədə bunu hiss edə bilirik. Rusiya və Ukrayna arasındakı müharibə qiymət artımını daha da yüksəldib. Azərbaycanda da bu proses getdikcə pik həddə çatır. Ucuzluq bir yana, stabil vəziyyətin olub-olmayacağı məlum deyil.

**Kənd təsərrüfatı məhsullarının bahalaşması barədə "Şərq"ə danışan iqtisadçı Ruslan Atakişiyev bildirib ki, Azərbaycanda mövsümi məhsullar, xüsusilə, yazın ilk vaxtlarında bahalaşır:** "Bu da kənd təsərrüfatı məhsullarının yaş halında tədarükünün yekunlaşması, bazara daha çox anbarlardan satışa çıxarılması, yerli alternativlərin xarici ölkələr hesabına ödənməsinin baş verməsindən qaynaqlanır. Həmin hadisə endogen və ekzogen proseslərin təsirindən də dərinləşib. Həm pandemiyadan sonrakı dövrdə dünya bazarında ərzaq məhsulları, xüsusilə, kənd təsərrüfatı məhsullarının qiymətlərinin bahalaşması daha çox idxalla gələn məhsulları göstərir. Ukrayna və Rusiya arasındakı münaqişə bu prosesi daha da gərginləşdirib. Hesab edirik ki, Azərbaycanda yay mövsümünə doğru irəlilədiyimizə görə apreldən başlayaraq noyabr ayına kimi kənd təsərrüfatı məhsullarında stabilləşmə, hətta ucuzlaşma müşahidə ediləcək".

*"Məhsul idxal etdiyimiz ölkələrdəki bahalaşma, qlobal və regional problemlər çətinliklər yaradır"*

**İqtisadçı qeyd edib ki, təchizatı əhatə edən bütün zəncirlər vasitəsi ilə paranoya yaşanır:** "Bu sahədə məhsullar daha çox xaricdən gətirildiyinə görə pandemiyadan sonrakı dövrlərdə mövcud tələbin artıma nisbətən fəaliyyətində ləngimələr olması, təklifdə qıtlığın yaranması bahalaşmaya səbəb olur. İstehsal sahəsində də bahalaşma görürük. Çünki Azərbaycanda mövcud olan istehsalın böyük bir hissəsində istifadə olunan məhsullar əsasən xaricdən gətirilir. Məhsul idxal etdiyimiz ölkələrdəki bahalaşma, qlobal və regional problemlər çətinliklər yaradır".

**Cəmilə Əzim**

# "Ayaz Mütəllibov tarixdə demokratik ruhlu siyasətçi kimi qalacaq"

## Araz Əlizadə: "Ona hakimiyyətini qorumaq üçün güc işlətməli olduğunu desəm də, sözümə məhəl qoymadı"



**Martın 27-də vəfat etmiş, sovet Azərbaycanın sonuncu kommunist rəhbəri, müstəqil Azərbaycanın ilk prezidenti 84 yaşlı Ayaz Mütəllibov Birinci Fəxri Xiyabanda dəfn olundu. O, Azərbaycanın müstəqilliyinin ilk illərində, 1991-1992-ci illərdə əvvəlcə parlament tərəfindən, sonra ümumxalq seçkiləri vasitəsilə prezident seçilmişdi.**

Xocalı faciəsindən bir neçə gün sonra istefa vermişdi. Ayaz Mütəllibovla işləmiş və ya onun hakimiyyətdə olduğu dövrü yaxından izləmiş siyasətçilər Mütəllibovun qısa çəkmiş prezidentlik müddətini Azərbaycanın çətin dövrü kimi xarakterizə edirlər. Əksəriyyət Mütəllibovu Xocalı faciəsinin qarşısını ala bilməməkdə, lazımi addımlar atmamaqda, fəaliyyətsizlikdə ittiham edirlər. Ancaq bəziləri hesab edirlər ki, Ayaz Mütəllibov xalq hərəkatını boğmayıb. Əksinə, onu tənqid edənlərlə işləməyə çalışıb, onun vaxtında müstəqil televiziya yaranıb və s. Məlumat üçün deyək ki, Ayaz Mütəllibov 1938-ci ildə Bakıda anadan olub. Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil alıb. Əmək fəaliyyətinə 1958-ci ildə Azərbaycan Elmi Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda başlayıb. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (MK) birinci katibi vəzifəsinə qədər irəliləyib. 1991-ci il sentyabrın 8-də keçirilən seçkilərdə Azərbaycanın ilk prezidenti seçilib. 1992-cı il martın 6-da istefa verib.

*Xəqani Səfəroğlu: "Kuluarlarda siyasi intriqalardan bəlkə də baş çıxara bilirdi, amma publik və siyasi rıçaqların açıq meydanında bu alınmırdı"*

**Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə "Şərq"ə açıqlamasında bildirib ki, Ayaz Mütəllibov Azərbaycan tarixində demokratik ruhlu, savadlı bir siyasətçi kimi qalacaq. 1990-cı illərin əvvəllərində Ali Sovetin deputatı və Respublika Müdafiə Şurasının üzvü olmuş Araz Əlizadə bildirib ki, həmin vaxt o, Mütəllibova qanuni yollarla öz hakimiyyətini qoruyub güc işlətməli olduğunu desə də, keçmiş prezident onun sözlərinə məhəl qoymayıb:** "O, xalqa lazımlı adam idi. Əfsuslar olsun ki, qaragüruh onu devirdi". A.Əlizadənin sözlərinə görə, Mütəllibovun tam imkanı vardı ki, güc yoluyla onun istefasını istəyənləri ram eləsin, amma bunu eləmədi: "O dedi ki, mən hakimiyyətə görə bir nəfərin də burnunun qanamasını istəmirəm. Bu cür hakimiyyət mənə lazım deyil və hakimiyyətdən getdi. Uzun müddət qürbətdə yaşadı, ürəyi Vətən həsrəti ilə döyündü. Həsrət illərindən sonra Azərbaycana qayıtmaq nəsib oldu. Ən böyük arzusu Qarabağın işğaldan azad olunması idi. Onu da gördü". A.Əlizadə Mütəllibovun Birinci Fəxri Xiyabanda dəfn olunmasını da müsbət qərar adlandırıb.

**Tanınmış jurnalist Xəqani Səfəroğlu isə feysbuk səhifəsində sabiq prezident Ayaz Mütəllibov haqqında bunları yazıb:** "Ayaz Mütəllibovdan 3-4 dəfə müsahibə almışdım. Uzaq Moskvada yaşayanda, yaxında, Bakıda olanda. Sonuncu müsahibə isə qismət olmadı. Əvvəl pandemiya imkan vermədi, sonra eks-prezidentin səhhəti. Sualları göndərməyi xahiş etmişdi. Göndərmişdim. Amma cavabı olmadı.

Suallarım isə çox idi. Cavabsız qaldı. Qanlı və ağır ildə, 1990-cı ildə Azərbaycana rəhbər təyin olunan Ayaz Mütəllibov məktəbli yaddaşımda şıq geyimi və parlaq sifəti ilə qalmışdı. Vəzirov qaçandan sonra gələn yeni başçı sovet ordusunun qırğınından qapqara qaralmış, güllələnmiş, işləməkdən imtina edən azərbaycanlılara "həyat davam edir" şüarı ilə təsəlli verməyə çalışırdı.

Həyat isə tam dəyişmişdi. SSRİ-nin suqutu başlanmışdı. O isə sanki bunu görmür, qəbul etmək istəmirdi. Müstəqillik uğrunda başlanmış mübarizə Ayaz Mütəllibov üçün anlaşılmaz idi. O, Qarabağ uğrunda gedən etiraz hərəkatının nə üçün azadlıq mücadiləsinə keçməsini anlaya bilmirdi. Qorbaçova xitabən "Qarabağ həll olunmasa nəticəsi pis olacaq" desə də dünyanın altıda birini tutan dövlətin karton ayaqlı nəhəng kimi yıxılacağını heç cür təsəvvür edə bilmirdi. A.Mütəllibov təsərrüfatçı partiya elitasının nümayəndəsiydi. Siyasi qərarlar qəbul etmək onun üçün həddən artıq ağır məsələ idi. Kuluarlarda siyasi intiraqlardan bəlkə də baş çıxara bilirdi, amma publik və siyasi rıçaqların açıq meydanında bu alınmırdı".

X.Səfəroğlu vurğulayıb ki, Ayaz Mütəllibov Moskvanın bu davanın qarşısını ala biləcəyinə sona qədər inanan adam oldu: "Ona görə Azərbaycanda Milli ordu qurulmasının əleyhinə idi. Radikal, SSRİ-nin, Rusiyanın xoşuna gəlməyəcək siyasi demarşlardan qorxurdu. ABŞ dövlət katibi Ceyms Beyker 1992-ci ilin fevralında Bakıya gələndə onu qarşılamaq üçün hava limanına belə getmək istəməmişdi. Vəfa Quluzadənin ciddi israrlarından sonra gedib onu qarşılamışdı. Ayaz Mütəllibova SSRİ-nin demokratik hərəkatının yetişdirdyi ciddi müxalifət miras qalmışdı. O, həmin qüvvələrlə necə davranacağını bilmirdi. Gah AXC lideri Elçibəyi döydürürdü, gah müxalifəti hədələyirdi, gah da birgə işləməyə çağırırdı. Amma bu nəhəng protest elektoratının nə üçün yarandığını və günü-gündən gücləndiyinin siyasi kodlarını görmürdü, ya da görmək istəmirdi. 2011-ci ildə həmişəlik vətənə qayıtmağa icazə veriləndə Ayaz Mütəllibov sakit və gözə çarpmadan yaşamağa üstünlük verdi. Qayıtdığı ölkədə tam yeni insanlar yaşayırdı. Onlar ötən tarixi pis xatırlayır, şahidi olanlar bunu yada salmamağa çalışırdılar. O, hərdən şəhərə, bulvara çıxır, şəhər sakinlərinin dinməz baxışları altında tam dəyişmiş, yeni forma almış Bakını seyr edirdi. Sabiq prezidentin dövranı bitmişdi, indi o, yalnız xatirələri ilə baş-başa qalmışdı".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# İşğaldan azad edilmiş ərazilərimizdə çörəkdə olacaq

## Bu bölgəmiz taxıl tələbatının ödənilməsində xüsusi rola malikdir



**Azərbaycanda uzun illərdir həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları şanlı qələbəmiz nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə də eyni qaydada icra olunacaq.**

Bunu Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağa etdiyi səfərlər zamanı da vurğulayır. 30 ilə yaxın müddətdə erməni vandallarının viran qoyduğu ərazilərdə Azərbaycan dövlətinin apardığı quruculuq, abadlıq işləri Qarabağ bölgəsini də yenidən dirçəldir, canlandırır. İqtisadi dirçəliş, insan resurslarının canlanması göz önündədir. Şanlı qələbəmizdən sonra ümumən Qarabağ bölgəsində nəhəng tikintilərə start verilib, yollar çəkilir, müəssisələr yaradılır, su elektrik stansiyaları işə salınır. Cənab Prezident Novruz bayramı günü Suqovuşana səfəri zamanı bildirdi ki, azad edilmiş hər bir bölgədə, şəhərdə, kənddə abadlıq-quruculuq işləri geniş vüsət alıb. Yaşayış binaları, turizm obyektləri, məktəb, bağça, məscid... bir sözlə, sosial infrastruktur üçün nə lazımdırsa, insanların normal yaşayışı üçün nə gərəkdirsə, hamısı tikilir və tikiləcək. Qısaca bunu xatırladaq ki, Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında icmal hesabatındakı məlumatlara görə dövlət büdcəsindən 1590, 3 milyon manat işğaldan azad edilmiş ərazilərdə yerinə yetirilən 16 avtomobil yolu layihəsinin icrasına və bu ərazilərdə istifadə etmək üçün maşın-mexanizm alınması üçün sərf edilib. Vətən müharibəsi dövründə avtomobil yollarına və yol qurğularına dəymiş ziyanın aradan qaldırılması məqsədilə ayrılmış vəsait hesabına isə 2021-ci ildə Naftalan şəhərində, Goranboy, Daşkəsən və Tərtər rayonlarında ümumilikdə 44,2 km asfalt-beton örtüklü avtomobil yolu və 2 ədəd körpü bərpa edilib. Tikinti-abadlıq işləri öz yerində. Digər əsas məsələlərdən biri də ölkəmizin ərzaq ehtiyatının formalaşmasıdır. Qarabağ bölgəsinin işğaldan azad edilməsiylə ərzaq təhlükəsizliyi və ərzaq ehtiyatı üçün münbit şərait yarandığını mütəxəssislər də daim vurğulayır.

**Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov ”Ağcabədi Taxıl Aqropark”ı yaradılarkən bunun bütövlükdə ərzaq təhlükəsizliyinin və təminatının formalaşmasında mühüm amillərdən biri olduğunu bildirib:**

- Azərbaycanda ərzaq təhlükəsizliyinin gücləndirilməsi prioritet məsələdir. Xüsusilə daxili imkanlar hesabına təminat ən vacib istiqamətlərdən biridir. Hazırda Azərbaycanda taxıla olan tələbatın 60 faizi yerli istehsal hesabına ödənilir, qalan 40 faizi isə idxal edilir. Bu baxımdan işğaldan azad edilmiş ərazilərimizin taxıl istehsalında, taxıla olan tələbin ödənilməsində xüsusi rolu ola bilər. Ağcabədi, Ağdam, Füzuli taxıl istehsalı baxımından Qarabağda aparıcı rayonlardandır. Ağdam və Füzulinin əsas hissələrinin uzun müddət işğal altında qalması o rayonların potensialından istifadə etməyə imkan verməyib. İlkin qiymətləndirmələr göstərir ki, işğaldan azad edilmiş ərazilərdə 200 min tona yaxın taxıl istehsalı mümkündür. Bu da ölkənin ərzaq təhlükəsizliyi və ərzaq təminatı baxımından çox vacibdir. ”Ağcabədi taxıl Aqropark” ölkədə taxıla olan tələbin yerli istehsal hesabına ödənilməsinə xüsusi, müsbət təsir göstərəcək, xüsusən də taxılda idxaldan asılılığın aradan qaldırılmasına xüsusi töhfə verəcək. Bu aqropark həm də işğaldan azad edilmiş ərazilərimiz üçün taxıl məhsullarının yetişdirilməsi, hazırlanması və istifadəsinə də imkan yaradacaq.

”Ağcabədi taxıl Aqropark” müasir əkinçilik və bağçılıq təsərrüfatının qurulması layihəsi olan aqroparkın ümumi sahəsi 3 min hektardır. Bu ərazinin 850 hektarı dövlət ehtiyat fonduna daxildir. Aqroparkın faktiki əkin sahəsi 1368 hektardır. Burada əsasən arpa, buğda, qarğıdalı, pambıq, günəbaxan və sair bitkilər becərilib. Aqroparkda, həmçinin 110 hektar sahədə intensiv badam bağı salınıb. Burada suvarma mənbəyi kimi

***“Ağcabədi, Ağdam, Füzuli taxıl istehsalı baxımından Qarabağda aparıcı rayonlardır”***

Yuxarı Qarabağ kanalından istifadə olunur. Əkin sahələrinin suvarılmasında ən müasir sistemlərdən istifadə edilir. Aqroparkın emal sahəsi gündəlik gücü 150 ton olan yem zavodundan və 100 ton olan yem paketləmə xəttindən ibarətdir. Ümumi dəyəri 35 milyon manat olan aqroparkın yaradılmasına 9,8 milyon manat məbləğində güzəştli kredit verilib. Burada 41-i daimi olmaqla 150 iş yeri yaradılıb. Bütün bunlar Qarabağ regionunda vətəndaşların işlə təmin edilməsinə də münbit şərait yaradır. Müasir dövrün reallıqları, hazırda dünyada yaşanan ərzaq qıtlığı, lokal müharibələr, iqlim dəyişiklikləri nəzərə alınarsa, yaxın gələcəkdə ərzağa tələbatın daha da artacağı şübhəsizdir. Azərbaycan dövləti reallıqlardan çıxış edərək taxıl, buğda tədarükündə idxaldan asılılığın azaldılmasını qarşısına məqsəd qoyub. Hazırda vəziyyət belədir ki, Azərbaycan 2022-ci ilin yanvarında buğda idxalını ötən ilin eyni dövrü ilə müqayisədə 4,2 dəfə artırıb. Bu barədə Dövlət Statistika Komitəsinin hesabatında qeyd olunur. Hesabat dövründə ölkəmiz 93,7 min tondan çox buğda idxal edib. Yanvar ayında ölkəyə idxal olunan buğdanın dəyəri 32,475 milyon dollar təşkil edib ki, bu da 2021-ci ilin yanvarı ilə müqayisədə 4,5 dəfə çox olub. Hesabatda qeyd olunur ki, buğdanın 50,1 faizi Qazaxıstandan, 49,9 faizi isə Rusiyadan idxal olunub. Ötən ilin yanvarı ilə müqayisədə Rusiyadan idxal 37,1 faiz azalıb, Qazaxıstanın isə payı müvafiq olaraq 37 faiz artıb. Azərbaycan dövləti taxıl və buğda tədarükündə alternativləri də gözdən keçirir. Məsələn, Hindistan Ticarət Nazirliyi buğda ixracı ilə bağlı Azərbaycan da daxil olmaqla 30 ölkəyə müraciət etmək üçün qərar qəbul edib. Hindistanın hökumətinin yüksək çinli rəsmisi bildirib ki, Hindistan dünyanın 30-a yaxın buğda idxal edən ölkəsində Rusiya və Ukraynanı əvəz etmək niyyətindədir. Onilliklər ərzində Rusiya və Ukrayna buğdasının eksklüziv alıcısı olan daha 10-15 ölkə var ki, Hindistan hökumət sövdələşmələri və ya özəl kanallar vasitəsilə ixracı artırmaq üçün onları da diqqətlə izləyir. Bu siyahıya Azərbaycan, Misir, Suriya, Mərakeş, Türkiyə, Sudan, İtaliya, Yəmən, Yunanıstan və Hindistan buğdasını nadir hallarda alan Şimal-Şərqi Afrika ölkələri daxildir. Odur ki, hazırda qarşıda duran əsas məsələ idxaldan asılılığı azaltmaqdır. Bunun üçünsə işğaldan azad edilmiş ərazilərin geniş potensialından səmərəli istifadə edilməlidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Həm zaman, həm də böyük maliyyə lazımdır

## Avropanın qısa müddətdə Rusiya qazına alternativ tapması qeyri-mümkündür



**”Rusiya xeyriyyəçiliklə məşğul olmaq, Avropaya pulsuz qaz göndərmək niyyətində deyil”. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.**

O bildirib ki, Moskva Avropa İttifaqının bu cür tədarükü rublla ödəməkdən imtina edəcəyi təqdirdə vəziyyəti öyrənəcək və əlavə qərarlar qəbul edəcək: ”Ödəniş yoxdursa, qaz da yoxdur”. Peskov bildirib ki, Qərb dövlətləri əslində Rusiyaya qarşı genişmiqyaslı iqtisadi müharibəyə başlayıb: ”Qərbi Avropa ölkələri, ABŞ, Kanada, Avstraliya faktiki olaraq bizə qarşı ticarətdə, iqtisadiyyatda müharibə aparır, əmlakımızı zəbt edir, pulumuzu ələ keçirir, maliyyə əlaqələrimizi əngəlləyir, biz Rusiyada özümüzə qarşı müharibəni hiss edirik. Və biz yeni reallığa uyğunlaşmalıyıq”.

Xatırladaq ki, ABŞ bu il Avropaya əlavə olaraq 15 milyard kub metr sıxılmış qaz ixrac edəcək. Məqsəd qədim qitənin Rusiyadan enerji asılılığının daha tez azaldılmasına nail olmaqdır. 552 milyard kub metr illik qaz istehlakı olan Avropa Birliyinin idxalında Rusiyanın 40 faizlik dominant payı var. Amerika 2030-cu ilədək Avropaya əlavə 50 milyard kub metr mavi qaz göndərməyi hədəfləyir.

**İqtisadçı-ekspert Pərviz Heydərov ”Şərq”ə bildirib ki, Avropaya əlavə olaraq 15 milyard kub metr sıxılmış qaz ixrac edilməsi qitəni Rusiya asılılığından qurtarmaq üçün yetərli deyil. Ekspertin sözlərinə görə, Avropa ötən il Rusiyadan 155 milyard kub metr qaz alıb:** ”Belə böyük bir payı başqa alternativlərlə qısa müddətə aradan qaldırmaq qeyri-mümkündür. Müharibə başlayandan üzü bəri ABŞ başda olmaqla Avropa İttifaqı Rusiyanı sanksiyalar yağışına tutublar. Belə demək mümkündürsə, sanksiyalarla Rusiyanı ”bombalayırlar”. Lakin məsələ enerji təminatına gəldikdə çox ləng və tərəddüdlü addımlar atırlar. Qərb qaz təminatı məsələsində Rusiya ilə olduqca ehtiyatlı davranır. Hətta Avropa İttifaqı açıq bəyan edir ki, rus qazından tamamilə imtina azı iki il vaxt tələb edir. 2 il ərzində rus qazını hardasa 70-80 faiz kompensasiya etmək haqqında düşünürlər ki, bu da qısa zamanda yeni mənbələrin tapılması deməkdir. Məsələn, ərəb ölkələrinin adı hallanır. Qətərdən Avropaya qaz tədarükünü təmin etmək müəyyən vaxt tələb edir. Bunun üçün investisiya qoyulmalıdır, külli miqdarda vəsait sərf olunmalıdır. Əfsuslar olsun ki, Avropa ölkələri Cənub Qaz Dəhlizinin çəkilişinə və fəaliyyətə başlamasına vaxtında lazımi səviyyədə diqqət göstərmədilər. Kəmərin bütün maddi yükünü Azərbaycan təkbaşına çəkdi. Amma indi Qərb ölkələri bizimlə əməkdaşlıq üçün sıraya giriblər. Sözümün canı odur ki, qısa müddətdə Avropanın Rusiyaya alternativ tapması qeyri-mümkündür. Bu həm zaman, həm də maliyyə tələb edən məsələdir”.

**İsmayıl Qocayev**

## 7 il həbsdə qalacaq

Məhkəmə Ata Abdullayevlə bağlı qərarı elan edib



**Bakı Apellyasiya Məhkəməsində bloger Ata Abdullayevin şikayəti üzrə məhkəmə iclası keçirilib.**

APA xəbər verir ki, hakim İlqar Murquzovun sədrliyi ilə keçirilən prosesdə şikayət təmin edilməyərək birinci instansiya məhkəməsinin hökmü qüvvədə saxlanılıb.

Xatırladaq ki, təqsirləndirilən şəxs Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılıb.

O, Cinayət Məcəlləsinin 182.2.2-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə ittiham olunaraq Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü il 7 il azadlıqdan məhrum edilib.

# Teleaparıcıların çoxu dilimizi təhrif edir

## Qulu Məhərrəmli: “Layiq olanları seçib, kamera qarşısında oturtmaq lazımdır”



**Teleaparıcıların ekranda olduğu kimi, sosial şəbəkələrdə də özünə xas izləyici kütləsi var. Bəzən həmin jurnalistlərin paylaşımlarında etdiyi qrammatik səhvlər diqqətləri çəkir. Yazar Kənan Hacı da öz sosial media hesabında bu mövzuya toxunub. O, teleaparıcıların dili təhrif etməsindən şikayətlənib:**

”Televiziya aparıcıları görəsən, niyə dilimizi təhrif edə-edə danışırlar? Statuslarına baxırsan, adam dəhşətə gəlir. Bunlara orta məktəbdə Azərbaycan dili dərsini niyə keçməyiblər?! Dili bilmirsə, bunun efirdə nə işi var? Telekanallarda bu sahəyə niyə nəzarət olunmur?”.

**Ana dilimizdən düzgün istifadə etməyən jurnalistlərə münasibət bildirən media eksperti, professor Qulu Məhərrəmli ”Şərq”ə açıqlaması zamanı qeyd edib ki, bu gün televiziya ana dilinin nitq mədəniyyətinin təbliğatçılarından biridir:**

”Verilişlərin dili, orada çıxış edən ziyalıların danışığı, əlbəttə ki, nümunə sayılır. Çox təəssüf ki, televiziya həmişə bu funksiyanı yerinə yetirə bilmir. Bəzən materialların redaktəsində, aparıcıların danışığında həddindən artıq qüsurlar olur. Bu barədə dəfələrlə monitorinq aparılıb. Sonuncu dəfə Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi bu barədə tədqiqat ortaya qoyub. Bunlar real faktlardır”.

Media eksperti bu kimi halların başvermə səbəbindən danışıb:

”Televiziya aparıcılarının statusları, danışığı, yaxud onların müsahibələrdə nöqsanları niyə baş verir? Mənə elə gəlir ki, biz aparıcılara xüsusi tələblə yanaşmırıq. Söhbət televiziya rəhbərlərindən, veriliş prodüserlərindən gedir ki, bəzən aparıcıları çox subyektiv parametrlərə görə seçirlər. Nəticədə də biz gözümüzün önündə bir televiziyanı təmsil edən aşağı səviyyəli aparıcılar görürük”.

**Q.Məhərrəmli sözügedən halları tənzimləmək üçün yollar göstərib:**

”Ən yaxşı çıxış yolu təbii ki, tələbkarlığı artırmaqdır. Layiq olanları seçib, kamera qarşısında oturtmaq lazımdır. Belə olmasa, əlbəttə ki, özfəaliyyətlə məşğul olacağıq. Yəni elə şeylər var ki, orada dəyərlər və kriteriyalar mütləq gözlənilməlidir. Çünki televiziya bizim ruhumuzun ərazisidir. Televiziya vitrindir, ora ən yaxşıları qoyurlar. Bizdə isə bəzən əksinə olur. Ona görə də məncə təkcə aparıcılara yox, redaktorlara, rejissorlara və digər yaradıcı insanlara da tələbkarlığı artırmaq lazımdır ki, onlar normal veriliş hazırlamaqla yanaşı, həm də Azərbaycan dilinin fəal və nümunəvi təbliğatçıları olsunlar. Belə olmasa, biz hər zaman nöqsanlardan şikayətçi olacağıq”.

**Çimnaz**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun i müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 853

**Forma № 1S**

**Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 5 dekabr 2008-ci il İ-125 №-li əmri ilə təsdiq edilmişdir.**

## SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: _____Qala Sığorta ASC____________

Hesabat dövrü __________________01.01.2022___________________________

*manatla*

| | AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | I.UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| A1 | **Torpaq, tikili və avadanlıqlar** | 531521,84 | 1257316,39 |
| A2 | **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 50999,27 | 7563,80 |
| A3 | **Daşınmaz əmlaka investisiyalar** | 0,00 | 0,00 |
| A4 | **Qeyri-maddi aktivlər** | 291872,67 | 260008,63 |
| A5 | **Təxirə salınmış vergi aktivləri** | 26624,61 | 0,00 |
| A6 | **Uzunmüddətli debitor borcları** | 0,00 | 0,00 |
| A7 | **Uzunmüddətli maliyyə aktivləri:** | 1710,00 | 1710,00 |
| A8 | dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| A9 | qeyri-dövlət qiymətli kağızları | 1710,00 | 1710,00 |
| A10 | sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| A11 | **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 312500,00 | 312500,00 |
| A12 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| A13 | **Sair aktivlər** | 600000,00 | 600000,00 |
| B1 | *Cəmi uzunmüddətli aktivlər* | 1815228,39 | 2439098,82 |
| | II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| C1 | **Ehtiyatlar** | | |
| C2 | **Debitor borcları:** | 5607451,68 | 6321299,08 |
| C3 | birbaşa sığorta üzrə | 3797877,68 | 3158834,07 |
| C4 | **təkrarsığorta əməliyyatları üzrə :** | 1568230,39 | 672671,90 |
| C5 | - təkrarsığortaçı üzrə | 1568230,39 | 672671,90 |
| C6 | - təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| C7 | asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| C8 | büdcə üzrə | 0,00 | 91994,86 |
| C9 | iddia tələbləri üzrə | 0,00 | 0,00 |
| C10 | işçi heyəti üzrə | 0,00 | 0,00 |
| C11 | sığortalılara verilən borclar üzrə | 0,00 | 0,00 |
| C12 | sair debitorlar | 241343,61 | 2397798,25 |
| C16 | valyuta hesabı | 1547251,93 | 1637828,81 |
| C17 | depozit hesablar | 4840000,00 | 8190000,00 |
| C18 | sair pul vəsaitləri | 36328,95 | 158839,56 |
| C19 | **Qısamüddətli maliyyə aktivləri:** | 9673536,55 | 19039012,07 |
| C20 | dövlət qiymətli kağızları | 9673536,55 | 19039012,07 |
| C21 | qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| C22 | sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| C23 | **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 11059508,68 | 9747338,42 |
| C24 | həyat sığortası sahəsi üzrə | 0,00 | 0,00 |
| C25 | qeyri-həyat sığortası sahəsi üzrə | 11059508,68 | 9747338,42 |
| C26 | **Sair qısamüddətli aktivlər:** | 1727311,36 | 683430,49 |
| C27 | gələcək hesabat dövrlərinin xərcləri | 704568,86 | 625863,29 |
| C28 | verilmiş avanslar | 1022742,50 | 57567,20 |
| C29 | təhtəl hesablar | 0,00 | 0,00 |
| C30 | **Sair aktivlər** | 65769,49 | 66676,52 |
| D1 | *Cəmi qısamüddətli aktivlər* | 45719694,86 | 50448246,66 |
| E1 | **CƏMİ AKTİVLƏR** | **47534923,25** | **52887345,48** |

| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün sonuna | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | I . KAPİTAL | | |
| F1 | **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 8050000,00 | 8944447,00 |
| F2 | **Emissiya gəliri** | 0,00 | 0,00 |
| F3 | **Geri alınmış kapital (səhmlər)** | 0,00 | 0,00 |
| F4 | **Kapital ehtiyatları:** | 0,00 | 0,00 |
| F5 | yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0,00 | 0,00 |
| F6 | digər kapital ehtiyatları | 0,00 | 0,00 |
| F7 | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 3834138,60 | 10897115,87 |
| F8 | Hesabat dövründə xalis mənfəət (zərər) | 2140539,02 | 9373017,27 |
| F9 | Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | 0,00 |
| F10 | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 1693599,58 | 1524098,60 |
| F11 | Elan edilmiş dividendlər | | |
| G1 | *Cəmi kapital* | **11884138,60** | **19841562,87** |
| | II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| H1 | **Sığorta ehtiyatları:** | 19600403,59 | 25327198,43 |
| H2 | Həyat sığortası sahəsi üzrə : | | |
| H3 | Qeyri-həyat sığortası sahəsi üzrə: | 19600403,59 | 25327198,43 |
| H4 | **Qarşısıalınma tədbirləri fondu** | 457378,94 | 689316,76 |
| H5 | **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| H6 | **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| H7 | **Təxirəsalınmış vergi öhdəlikləri** | 0,00 | 0,00 |
| H8 | **Kreditor borcları :** | 0,00 | 0,00 |
| H9 | əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| H10 | büdcə üzrə | 0,00 | 0,00 |
| H11 | sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| H12 | digər məcburi ödənişlər üzrə | 0,00 | 0,00 |
| H13 | asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| H14 | sair kreditorlar | 0,00 | 0,00 |
| H15 | **Sair uzunmüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| H16 | gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| H17 | alınmış avanslar | 0,00 | 0,00 |
| H18 | **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 1017363,01 | 1194349,94 |
| H19 | təkrarsığortaçı üzrə | 1017363,01 | 1194349,94 |
| H20 | təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| H21 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| H22 | **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| I1 | *Cəmi uzunmüddətli öhdəliklər* | **21075145,54** | **27210865,13** |
| | III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| J1 | **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| J2 | **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| J3 | **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0,00 | 0,00 |
| J4 | **Kreditor borcları:** | 2234975,52 | 3463882,08 |
| J5 | əməyin ödənilməsi üzrə | 0,00 | 869,90 |
| J6 | büdcə üzrə | 397594,39 | 1640385,98 |
| J7 | sosial sığorta və təminat üzrə | 0,00 | 93850,34 |
| J8 | digər məcburi ödənişlər üzrə | 243240,21 | 177273,11 |
| J9 | asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| J10 | sair kreditorlar | 1594140,92 | 1551502,75 |
| J11 | **Sair qısamüddətli öhdəliklər:** | 12340663,59 | 2371035,40 |
| J12 | gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| J13 | alınmış avanslar | 12340663,59 | 2371035,40 |
| J14 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| J15 | **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| K1 | *Cəmi qısamüddətli öhdəliklər* | **14575639,11** | **5834917,48** |
| L1 | *CƏMİ ÖHDƏLİKLƏR* | **35650784,65** | **33045782,61** |
| M1 | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | **47534923,25** | **52887345,48** |
| N1 | Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | 0,00 | 0,00 |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

**Forma № 2S**

**Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 5 dekabr 2008-ci il İ-125 №-li əmri ilə təsdiq edilmişdir.**

## SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: _____Qala Sığorta ASC____________

Hesabat dövrü __________________01.01.2022___________________________

*ilin əvvəlindən artan yekunla*

*manatla*

| | Gəlirlər | Məbləğ |
|---|---|---|
| A1 | **Əsas əməliyyat gəliri:** | 46528713,46 |
| A2 | birbaşa sığorta üzrə sığorta haqları | 43848893,26 |
| A3 | təkrarsığorta üzrə təkrarsığorta haqları | 0,00 |
| A4 | sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 2555797,26 |
| A5 | təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 124022,94 |
| A6 | **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | -7038965,10 |
| A7 | **İnvestisiya gəlirləri üzrə** | 1695762,07 |
| A8 | **Subroqasiya gəlirləri** | 154096,88 |
| A9 | **Sair gəlirlər** | 2021645,27 |
| B1 | **CƏMİ GƏLİRLƏR** | 43361252,58 |
| | **Xərclər** | |
| C1 | **Əsas əməliyyat xərcləri:** | 20540576,10 |
| C2 | sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 5667461,24 |
| C3 | qaytarılan sığorta haqları üzrə | 2290618,53 |
| C4 | tənzimləmə xərcləri | 63534,13 |
| C5 | təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 12226904,38 |
| C6 | qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 292057,82 |
| C7 | sığorta fəaliyyəti üzrə sair xərclər | 0,00 |
| C8 | **İşlərin aparılması xərcləri** | 11082707,53 |
| C9 | **Sair xərclər** | 50000,00 |
| D1 | **CƏMİ XƏRCLƏR** | 31673283,63 |
| E1 | **Maliyyə mənfəəti (zərəri)** | 11687968,95 |
| E2 | **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0,00 |
| E3 | **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 11687968,95 |
| E4 | **Mənfəət vergisi** | 2314951,68 |
| E5 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | 9373017,27 |

CASPIAN CONSULTING & PARTNERS

Zərifə Əliyeva küçəsi 93,
BEGOC Biznes Mərkəzi,6-cı mərtəbə
AZ1000 Bakı, Azərbaycan.
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: office@cc.baku.az
veb səhifə: www.caspian-consulting.com

### MÜSTƏQİL AUDİTORUN RƏYİ

**"Qala Sığorta" ASC -nin İdarə heyətinin sədri**
**Fuad Allahverdiyevin diqqətinə**

*Rəy*

Biz **"Qala Sığorta" ASC** 31 dekabr 2021-ci il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Auditor hesabatının davamı

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC

Direktor/Auditor: Elnurə Abdinova

Tarix: 18.03.2022



## Küçə itlərindən qaçarkən yük maşınının altında qaldı

Mahra son mənzilə yola salındı

**Türkiyənin Antalya şəhərində 23 gün əvvəl yük maşınının altında qalan 10 yaşlı Mahra Melin Pınar xəstəxanada müalicə alsa da, həkimlər onun həyatını xilas edə bilməyib.**

"Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, faciəli hadisə 5 mart tarixində Antalyanın Belek məhəlləsində yaşanıb. Küçə itləri 10 yaşlı Mahraya hücum edib. Uşaq itlərdən qaçmağa çalışıb, yolu keçərkən İrfan Y-nin idarə etdiyi yük maşınının altında qalaraq ağır xəsarət alıb. Uşaq Serik xəstəxanasına aparılıb. Müayinə zamanı məlum olub ki, Mahranın beynində tromb əmələ gəlib. Sağ ayağı da ciddi xəsarət alıb. Uşağın sağ ayağı dizindən əməliyyatla amputasiya olunub. Həkimlərin səyinə baxmayaraq Mahranın həyatını qurtarmaq mümkün olmayıb. Uşağın cənazəsi Belek Mərkəzi Camisinə gətirilib. Dəfn mərasimində qızın atası Murad, anası Dərya, 9 yaşlı qardaşı Murad Dərin Pınar, nənə-babası, yaxın qohumları, həmçinin məktəbli dostları, vali köməkçisi, bələdiyyə başqanı, bölgə üzrə milli təhsil şöbəsi müdiri də iştirak edib. Qızcığazın anası Dərya Pınar balasının tabutuna sarılaraq "Özü də, qəlbi də gözəl idi. Getdi, gözəl qızım, mələk oldu" deyə, göz yaşı töküb. Mahranın nənəsi də "gözəl qızım, bizi tərk etmə", deyərək ağlayıb. Cənazə namazından sonra Mahran torpağa tapşırılıb. Mahranın atası Murad Pınar isə başqa uşaqlar da məhv olmasın, həyatları sönməsin deyə, hüquqi müstəvidə lazım olan işləri davam etdirəcəyini deyib: "İndi danışa bilmirəm. Qızımı torpağa tapşırdım. Başqa uşaqlar eyni faciəni yaşamasın deyə, günahkarların cəzalanması üçün əlimdən gələni edəcəyəm".

**Məlahət**

## Meşədə quşlar üçün "otel" yaradıldı



**İsveç meşələrinin birində yerləşən "Treehotel eko" oteli müxtəlif quşlar üçün nəzərdə tutulub.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, otel uzaqdan çoxəsrlik şam ağacları arasında sallanan nəhəng yuvarlaq konusu xatırladır. Əslində isə "otel" 350 quş evinin quraşdırıldığı və quşların məskunlaşacağı bir ağac evdir.

Quşlar üçün sığınacaq məqsədilə quraşdırılan "otel" həm də qəribə dizaynı ilə də seçilir.



## Yaraşdı

### Hande Yener imicində dəyişiklik edib

**Türkiyəli müğənni Hande Yener imicində dəyişiklik edib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sənətçi tünd qəhvəyi saçlarını sarı rəngə boyadıb. O, saçlarının uclarını isə çəhrayı rəng etdirib.**

**Sosial şəbəkə izləyiciləri yeni görüntüsünün ona yaraşdığını qeyd ediblər.**

## Məşhur əsər 106 minə satılıb

### Əldə olunan gəlir Ukraynaya bağışlandı



**Qalmaqallı, məşhur qraffiti-rəssam Benksinin "CND (Campaign for Nuclear Disarmament) Soldiers" adlı əsəri hərraca çıxarılaraq satılıb.**

**Əsər 106 min 505 dollar (təxminən 272 min 858 manat) müqabilində yeni sahibinə təqdim olunub.**

**Bildirilib ki, satışdan əldə olunan gəlir Kiyevin Oxmatdet xəstəxanasına bağışlanıb.**

## Sağlam insanlar həftədə 4-5 dəfə yumurta yeyə bilər



**Yumurta əti əvəz edə biləcək zülal mənbəyidir.**

**O həm də kalsiy, fosfor, D vitamini ilə zəngindir.**

**Bakupost.az xəbər verir ki, həkimlər yumurtanın həftəlik miqdarını açıqlayıb.**

**Böyük yaşlı və sağlam insanlar həftədə 4-5 dəfə yumurta yeyə bilər. Gündəlik norma 2 ədəddir.**

**Yaşlı və xroniki xəstəliyi olanlar isə həftədə 3 dəfə ilə kifayətlənsinlər.**

**Ürək-damar tutulması olanlara yumurtanın sarısı məsləhət deyil.**

**Yumurtadan fayda almaq üçün onu suda bişirib yemək lazımdır.**







# İşsiz qalan rus pilotlar ölkədən qaçır



## Rusiya aviaşirkətləri müflis olmaqdan xilas ola bilməyəcək

**Ukraynaya hərbi təcavüzünə görə iqtisadi sanksiyalarla üzləşən Rusiyanın mülki aviasiyası da zərbə alıb. Avropa dövlətlərinin bir çoxu hava sahəsini Rusiya təyyarələrinin üzünə bağladığından aviaşirkətlər ciddi problemlərlə üzləşib və müflis olmaq dərəcəsinə çatıblar.**

Rusiya aviaşirkətləri xarici xətlərdə uçuşları yalnız yerli istehsal təyyarələrlə icra edə bilir. Xarici reyslərdə olan təyyarələrə də Avropa dövlətləri tərəfindən embarqo qoyulub və onlar Rusiyaya qayıda bilmir. Digər yandan işsiz qalan pilotlar da ölkəni tərk etməyə hazırlaşır. Eyni vəziyyət vaxtilə İran aviaşirkətləri ilə bağlı da baş verib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, hazırda Rusiya aviaşirkətləri İranın vaxtilə tətbiq etdiyi təcrübədən yararlanmağa çalışır.

Hava yolları şirkətlərinin iqtisadi sanksiyalardan az itki ilə çıxmaq üçün sərnişindaşımanın miqyasını kiçildəcəyi, uçuş zolaqlarına enəcək təyyarələrdənsə yedək parça kimi istifadə edəcəkləri bildirilir. Türkiyənin Əskişəhər Osmanqazi Universitetinin təyyarə mühəndisliyi bölümünün başqanı, professor Melih Cemal Kuşhan isə qeyd edib ki, belə bir təcrübə Rusiya aviaşirkətlərini müflis olmaqdan xilas etməyəcək: - Rusiya havayolları xarici xətt sərnişinlərinin böyük qismini əcnəbi şirkətlərə güzəştə getmək məcburiyyətindədir. Mövcud böhranı aradan qaldırmaq çox çətindir. Rusiya sərnişin təyyarələri Avropaya uça bilmir. Təyyarə reysləri ləğv edilməsə belə, təyyarələrə əlverişlilik sertifikatı verilməyəcək. Bu sertifikat olmadan da təyyarələr heç bir ölkəyə uça bilməz. Belə görünür ki, Rusiya yaxın zamanda bu böhrandan çıxa bilməyəcək.

**Rusiyanın Nəqliyyat naziri Vitali Savelyev də mövcud problemə toxunub və pilotların ölkədən ayrılacağına münasibət bildirib:** "Ümidimizi hələ itirməmişik. Pilotlarımızı ölkədə saxlamaq üçün əlimizdən gələni edəcəyik. Bu insanların ölkədən getməsi aviasiyamızın sonu anlamına gəlir. İrana qarşı 1995-ci ildən embarqolar tətbiq edilir, amma onların təyyarələri bu gün də havaya qalxır. Yedək parça olsa da, hava yolları şirkətləri işləyir. Biz də bu təcrübədən yararlanacağıq".

**Məlahət**



# Ehtiyatlı olun, zəhərlidir!

## İnternet üzərindən satılan kremlərin çoxu təhlükəlidir

**Bir çoxumuz internet üzərindən alış-verişi üstün hesab edir: vaxta qənaət edir, mağazaları gəzmirik, həm də daha ucuz başa gəlir, düşünürük. Bəs necə olur ki, keyfiyyətli, brend sayılan mallar ənənəvi qiymətlərdən ucuz başa gəlir? Bu barədə deyəsən, heç də hamı düşünmür. Ucuzluğuna aldanıb sifariş etdiyimiz mallar isə adətən keyfiyyətsiz və kustar üsulla istehsal edilənlər olur.**



Məsələn, xanımların daha çox maraq göstərdiyi və görən kimi sifariş etdiyi dəriyə qulluq vasitələri. "Milliyet.com" internet üzərindən satışı, az qala havada "uçuşan" dəriyə qulluq vasitəsi kremlərin tərkibində ağır metallar olduğuna dair xəbər verir. "Şərq" "Milliyet.com" a istinadən oxucularına bu xəbərdarlığı çatdırır. Türkiyədə çalışan dermatolologiya üzrə mütəxəssis, doktor Melda Özekinci bildirir ki, 15 ölkədə dəriağardıcı və yaşlanmaya qarşı istifadə olunan 271 fərqli kosmetik vasitə - kremin tərkibi araşdırılıb. İnternet üzərindən satılan kremlərin çoxunun tərkibində təhlükəli dərəcədə (1 ppm-dən yüksək ) civə olduğu müəyyənləşib. Bunu mütəxəssislər "astronomik" dərəcə adlandırır. Bu cür kremləri Pakistan, Meksika, Çin və Tayvan şirkətləri daha çox satır. Kosmetik vasitələrdə civə miqdarının çoxluğu nələrə yol açır? Dermotoloq qeyd edib ki, civədən dəridəki ləkələrin aradan qaldırılması və guya ki, dərinin gəncləşdirilməsi üçün istifadə edilir. Lakin kosmetik vasitələr alıcıları qısa zamanda təsir altına alsın deyə, civədən lazım olduğundan daha artıq miqdarda istifadə edilir. Civənin tərkibində zəhərli elementlər çox olduğundan onlar təkcə dəriyə deyil, ümumilikdə orqanizm üçün böyük təhlükədir. Dəriyə sürtülən civə orqanizmin civəni birbaşa daxilə etməsi kimidir. Bu durum xüsusilə böyrəklərə və sinir sisteminə mənfi təsir göstərir. Uzun müddət istifadə edildikdə əzələ boşalması, yaddaş itkisi, böyrək çatışmazlığı kimi xəstəliklərə səbəb ola bilər. Dəriylə təmasda civə birbaşa orqanizmə keçir. Təsiri isə içilən dərmanlardan qat-qat artıq olur. Ona görə də dəriyə qulluq vasitəsi qismində kosmetik vasitələri sifariş etməzdən əvvəl mütəxəssislərə müraciət etmək, kremlərin tərkibini öyrənmək, satış həyata keçirən şirkətlə də maraqlanmaq lazımdır. Odur ki, kosmetik vasitələr alarkən, ya da sifariş edərkən "adi losyondur, kremdir", deyib keçmək olmaz.

**Məlahət**

## Başlarını bir-bir qırdı

Naməlum şəxs uşaq heykəlciklərinə qarşı vandallıq edib



**Türkiyənin İzmir şəhəri, Dikili bölgəsi, Adnan Menderes küçəsində yerləşən "75-ci ildönüm parkı"ndakı uşaq heykəlciklərinə qarşı vandallıq edilib.**

Naməlum şəxs əllərini bir-birinin çiyninə qoymuş vəziyyətdə sıra ilə düzülmüş uşaq heykəlciklərinin başlarını qırıb. Bu barədə "NTV.com.tr" məlumat yayıb. Məlumatda bildirilir ki, hadisə barədə vətəndaşlar yerli bələdiyyəyə xəbər verib. Bələdiyyə əməkdaşları parkdakı müşahidə kameralarını incələdikdə gənc bir adamın ayağını qaldıraraq heykəlciklərin başına təpiklə zərbə vurduğunu görüblər. Heykəlciklərin başı qoparaq yerə düşüb. Bununla da kifayətlənməyən adam daha sonra geri qayıdıb, qırılmış başları götürüb dənizə atır. Məlumatda qeyd olunur ki, bu, uşaq heykəlciklərinə qarşı artıq üçüncü hücumdur. Heykəlciklər poliesterdən düzəldiyindən tez qırılmağa meyillidir. Bələdiyyənin şikayəti üzrə polis şöbəsi şübhəli şəxsi yaxalamaq üçün əməliyyata başlayıb.

**Məlahət**

## "Qürur duyuram"

Cesika Mey Türk vətəndaşlığı aldı



**Türkiyədə bir neçə dizidə baş rolların ifaçısı olan braziyalı aktrisa Cesika Mey (Jessica May) rəsmi şəkildə Türkiyə vətəndaşlığı alıb. Cesikanın həyat yoldaşı türkdür. Aktrisa 3 ildir ki, fotoqraf Hüseyin Kara ilə evlidir.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Türkiyə Cümhuriyyəti vətəndaşlığını təsdiq edən sənəd C.Meyə 17 martda təqdim edilib. Aktrisa əlində vətəndaşlıq sənədi olan fotosunu instagram hesabında paylaşıb. Onun türk vətəndaşlığı almasına münasibət isə, təəccüblüdür ki, heç də birmənalı olmayıb. Sosial şəbəkə istifadəçiləri müxtəlif yorumlar bildirib. Və yorumlar arasında mənfiləri də var. Aktrisa isə mənfi yorumlara etiraz edərək uzun müddətdir türk vətəndaşı olmağı arzuladığını, nəhayət xəyalına qovuşduğunu deyib: "Türkiyə vətəndaşlığı almaq üçün 4 il əvvəl müraciət etmişəm. 4 ildir ki, bu günü gözləyirdim. Deyirdilər, vətəndaşlıq almaq asandır. Heç də belə deyilmiş. Əksinə, çox çətin imiş. Həyat yoldaşım türkdür, Vətəni Türkiyədir. Türkiyə artıq mənim də ikinci Vətənimdir. Buna görə də mücadilədən əsla vaz keçmədim. Sonda arzuma çatdım". Aktrisa ötən gün İstanbulun Nişantaşı bölgəsində obyektivlərə yaxalanıb. Jurnalistlərin suallarına C.Mey "çox xoşbəxtəm. Gözəl duyğular içindəyəm. Türk vətəndaşı oldum deyə, sosial mediyadakı mənfi fikirlərə üzüldüm. Mənasız, qəlbə toxunan yorumlar aldım. Hesab edirəm ki, mənfi münasibət bəsləyənlər ölkəsini sevən insanlar deyil. Mən Türkiyəni çox sevirəm. Həmişə də sevəcəyəm. Türk vətəndaşı olduöum üçün də çox qürurluyam", söyləyib. Xatırladaq ki, Cesika Mey 15 yaşındaykən modelliyə başlayıb. 2017-18-ci illərdə Türkiyədə əvvəlcə "Yeni gəlin", sonra isə "Mariya ilə Mustafa" dizilərində canlandırdığı obrazlarla tanınıb, məşhurlaşıb. C.Meyin tez-tez Vətəni Braziliyaya səfər etdiyi də bildirilir.

**Məlahət**